Kod: 1604725 Payızlıq yumuşaq buğdanın **"Dəyirman"** sortu ortayetişəndir. Əkinçilik Elmi Tədqiqat İnstitutunun Abşeron YYT Beynalxalq Seleksiya Mərkəzlərindən alınmış buğda genotiplərindən yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığına, boylarının orta, arxitektonikasına, keyfiyyətinə və dəmyə şəraitində yüksək məhsuldarlığına görə fərqlənən formalardan fərdi seçmə aparmaqla alınmışdır. Bu sort lutescens növ müxtəlifliyinə aiddir. Sort orta boyludur (84,0-92 sm), gövdəsi möhkəm, yatmaya davamlıdır, məhsuldar kollanması 3,1-3,3-dür. Sünbüldə sünbülcüklər sıx yerləşmiş, sünbüldə dənlərin sayı 33,0-34,0 ədəd, 1000 dənin kütləsi 35,0-39,4 q-dır. Sünbülü silindirik, uzun, ağ rəngdə olub qılçıqsızdır. Sortun dəni orta irilikdə və şırımın xarakteri orta, rəngi qırmızı olub, oval və seyrək tüklüdür. Potensial məhsuldarlığı dəmyə şəraitində 40-45 s/ha-dır. Sortun tədqiqat illərində sarı və qonur pas, sürmə xəstəliklərinə tutulması müşahidə olunmamışdır. Məhsuldarlığı Naxçıvan DSSM-də 40,0 s/ha,

İsmayıllı DSSM-də 39.0 s/ha, Salyan DSSM-də 42.05 s/ha olmuşdur. Dəndə zülalın miqdarı 14,0 %, kleykovinanın miqdarı 30,4 %-ə qədər yüksələ bilir. Sortun respublikanın suvarma bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1803514 Payızlıq yumşaq buğdanın **"Cümhuriyyət 100"** sortu gecyetişəndir, Əkinçilik Elmi Tədqiqat İnstitutunda yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığının, boylarının orta olmasına, arxitektonikasına, keyfiyyətinə və yüksək məhsuldarlığına görə fərqlənən introduksiya olunmuş 18th FAWWON IR pitomnikindən № 51-dən fərdi seçmə yolu ilə alınmışdır. Bu sort Lütessens (Lyutessens) növmüxtəlifliyinə aiddir. Sort orta boyludur (98.4-99,0 sm), gövdəsi möhkəm, yatmaya davamlıdır, məhsuldar kollanması 2,9-3,1-dır. Sünbüldə sünbülcüklər sıx yerləşmiş, sünbüldə dənlərin sayı 49,6-50,4 ədəd, 1000 dənin kütləsi 40,8-43,6 q-dır. Sünbülü oval, orta uzunluqda, ağ rəngdə olub qılçıqsızdır. Sortun dəni orta irilikdə və şırımın xarakteri orta, rəngi qırmızı olub, yarım uzun və seyrək tükcüklüdür. Potensial məhsuldarlığı quraq dəmyə şəraitində 40,0-45,0 s/ha-dır. Sortun tədqiqat illərində sarı və qonur pas, sürmə xəstəliklərinə tutulması müşahidə olunmamışdır. Məhsuldarlığı Naxçıvan DSSM-də 37,6 s/ha, Qusar DSSM-də 32,5 s/ha, Salyan DSSM-də 46,95 s/ha, Ağdam DSSM-də 48,9 s/ha olmuşdur. Dəndə zülalın miqdarı 12,0 %, ya kleykovinanın miqdarı 25,0%-ə qədər yüksələ bilir. Sortun respublikanın suvarılan və dəmyə bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1704666 Yarımpayızlıq yumşaq buğdanın **"Əsəd-80"** sortu tezyetişəndir, Əkincilik Elmi -Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında,14th I WWYT-IR 2010-2011 pitomnikindən seçilmiş TX04A001246 X95V4339/TX94VT938-6 sort nümunəsindən təkrar fərdi seçmə yolu ilə yaradılmışdır. Sort yarımintensiv tipli, orta boyludur (82,7-108,1 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya yüksək davamlıdır. Kollanması orta (2,80-4,10 ədəd), yarım yerəsəriləndir. Sort yarımpayızlıqdır. Cücərtiləri açıq yaşıl rəngdədir. Bəzi morfobioloji əlamətlərə görə yerli speltoid buğdalara oxşayır, sonuncu-sünbülaltı buğumarasının içərisi boşdur. Sünbül oxunun 10 sm-də 20-20,5 sünbülcük yerləşir. Sünbülcük pulcuqları nisbətən qısa və şişkindir, Avropa buğdalarında olduğu kimi əsasında basqınlıq aydın görsənir, kil dişciyi ortaq uzun (5-6 mm), düzdür, çiyni çəpdir. Sünbülcük pulcuqları oval formada, ağ rənglidir. Damarlanması və kil cox aydın görünür. Sünbül, əksər hallarda əsasından aşağı əyilir. Qılçıqları sünbüldən 5-7sm uzun, dağınıq, ağ rənglidir. Sünbülün döyülməsi asandır. Dəni nisbətən xırda, yumurtavari-oval, qırmızı rəngli, şüşəvariliyi 61-66%, kəkil yaxşı inkişaf etmişdir, şırımı dayaz, ensizdir. Sortunun potensial məhsuldarlığı ortadır (53,4-69,5 s/ha), 1000 dənin kütləsi 34,6-34,8 q, natura kütləsi 727,0 q., əsas sünbüldə dənlərin sayı 46,3-51,4 ədəd, əsas sünbüllərdə dənlərin kütləsi 1,80-3,15 qramdır. Sortunun məhsuldar kollanması orta (2,8-4,1 ədəd) olduğundan, hektara 3,5-4,0 milyon toxum səpildikdə məhsuldarlığı yüksək olur. Şaxtaya ,quraqlığa,yüksək temperatura davamlıdır. Dəndə zülalın miqdarı 12,2-17,3%, kleykovinanın miqdarı 32,4%-ə qədər yüksələ bilir. Məhsuldarlığı Naxçıvan DSSM-də 37,0 s/ha, İsmayıllı DSSM-də 40,4 s/ha, Qusar DSSM-də 38.0 s/ha, Salyan DSSM-də 47,25 s/ha, Ağdam DSSM - də 46 s/ha, Xaçmaz DSSM-də 37,7 s/ha olmuşdur. Sortun respublikanın suvarılan və dəmyə bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1604716 Payızlıq yumşaq buğdanın **"Xırman"** sortu gecyetişəndir, Əkincilik Elmi Tədqiqat İnstitutunda yerli Pirşahin 1 və Beynəlxalq Seleksiya Mərkəzindən introduksiya olunmuş 8th HTWYT pitomnikindən seçilmiş genotipdən (entry 30) hibridləşmə yolu ilə alınmışdır. Sort yatmaya və xəstəliklərə davamlılığına, boyunun orta, arxitektonikasına, keyfiyyətinə dəmyə və suvarma şəraitində yüksək məhsuldarlığına görə fərqlənmişdir. Bu sort Eritrospermum növ müxtəlifliyinə aiddir. Sort orta boyludur (89,0-94,0 sm), gövdəsi möhkəm yatmaya davamlıdır, məhsuldar kollanması 2,9-3,1-dir. Sünbüldə sünbülcüklər sıx yerləşmiş,

sünbüldə dənlərin sayı 34,8-36,0 ədəd, 1000 dənin kütləsi 35,0-37,3 q-dır. Sünbülü silindrik, uzun, ağ rəngdə olub qılçıqsızdır. Sortun dəni orta irilikdə və şırımın xarakteri orta, rəngi qırmızı olub, oval və seyrək tüklüdür. Dəndə zülalın miqdarı 12,5-15,1% kleykovina 35,2%-dir. Potensial məhsuldarlığı quraq dəmyə şəraitində 40-45 s/ha-dır.Sortun tədqiqat illərində sarı və qonur pas, sürmə xəstəliklərinə tutulması müşahidə olunmamışdır. Məhsuldarlığı Naxçıvan DSSM-də 38,0 s/ha, İsmayıllı DSSM-də 36,5 s/ha, Qusar DSSM-də 32,4 s/ha, Salyan DSSM-də 36,25 s/ha olmuşdur. Sortun respublikanın dəmyə və suvarma bölglərində becərilməsi tövsiyə olunur.

Kod: 1703609 Payızlıq yumşaq buğdanın **"Tunc"** sortu Əkincilik Elmi Tədqiqat İnstitutunda yaradılmışdır. Ortayetişəndir, SIMMYT-dən introduksiya olunmuş (kombinasiya. CWANA 11th.RWKLDN-SEKSAKA-7/3/ SHUHA 2//NS 72/HER) yuxarı nəsil hibrid kombinasiyasından iki qat fərdi seçmə yolu ilə yaradılmışdır. Tunc sortu eritrospermum növmüxtəlifliyinə aid olub, sünbülü iyvari formada, ağ rəngdə, dəni tünd qırmızıdır. Kollanma fazasında yarpaqları və eyni zamanda sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub zəif mum təbəqəsi ilə örtülmüşdür. Sümbülcüklər sünbül oxunda orta sıxlıqda yerləşmişdir. Sümbülcük pulcuğu yumurtavari oval formada olub, kili zəif inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi iti, çiyni düz formadadır. Sünbülü uzun (9,0-10,0sm), orta sıxlıqla (21,6-23,4 əd.sünbülcük) səciyyələnir. Bir sünbüldə dənlərin sayı 55,4-67,9 ədəd təşkil edir. 1000 dənin kütləsi 36,0-43,0 qramdır. Dəndə zülalın miqdarı 13,4-14,6 %, kleykovinanın miqdarı 35,2-%-ə qədər yüksələ bilir. Dənin şüşəvariliyi yüksəkdir (42,0-95,0%). Sort qısa boyludur (81,3-93,0 sm) və yüksək kollanma əmsalına (3,6-4,4 əd.) malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, (210-213 gün). Potensial məhsuldarlığı 72,0 s/ha olmuşdur. Sort tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Məhsuldarlığı Naxçıvan DSSM-də 38,0 s/ha, İsmayıllı DSSM-də 37 s/ha, Salyan DSSM-də 36,75 s/ha olmuşdur. Sortun suvarılan düzən və dağətəyi dəmyə bölgələrdə becərilməsi tövsiyə olunur.

Kod: 1703544 Payızlıq yumşaq buğda **"Almaz"** sortu Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu tərəfindən yaradılmış, gecyetişəndir, mürəkkəb hibrid olub Axaltsixis Tsiteli Doli, 45319 Panoniya, Şarbat sonora və Dwarf sortlarının iştirakı ilə mürəkkəb hibrid kombinasiyasından təkrar fərdi seçmə yolu ilə yaradılmışdır. Almaz sortu lütescenss növmüxtəlifliyinə aid olub, sünbülü silindirik formada, ağ rəngdə, uzun(10-12 sm), dəni tünd qırmızıdır. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub mum təbəqəsindən azaddır. Sünbülcüklər sünbül oxunda seyrək formada yerləşmişdir. Sünbülcük pulcuğu oval formada olub, kili zəif inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi küt, çiyni qalxmış formadadır. Sünbülü uzun (10-12 sm), seyrək (19,0-23,0 əd.sünbülcük) səciyyələnir. Bir sünbüldə dənlərin sayı 48,7-57,0 ədəd olmaqla üç illik orta göstəricisi 52,2 ədəd təşkil edir. 1000 dənin kütləsi 41,8-49,0 qram, dəndə zülalın miqdarı 15,2-17,3%, kleykovinanın miqdarı 45,0%-ə qədər yüksələ bilir. Sort orta boyludur (92,8-116,5 sm) və yüksək kollanma əmsalına (3,4-4,7 əd.) malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, (184-211 gün). Potensial məhsuldarlığı 68,5 s/ha olmuşdur. Məhsuldarlığı Naxçıvan DSSM-də 37,0 s/ha, Ağdam DSSM 45 s/ha, Salyan DSSM-də 42,5 s/ha olmuşdur. Sort tədqiqat illərində sarı və qonur pasa, unlu şehə qarşı davamlılıq göstərmişdir. Sort Respublikanın suvarılan aran və həmçinin nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi məsləhət görülür.

Kod: 1802624 Yumşaq buğda sortu **"Onur"** sortu Əkincilik Elmi Tədqiqat İnstitutunda yaradılmışdır, tezyetişəndir, CWANA 9th KWKLDN -10 Warona, HD2402, TAST,SPIRWI,BLL,NWT,sort nümanələrinin iştirakı ilə hibrid kombinasiyadan (kombinasia-

Warona/ HD2404/TAST/SPIRWI/BLL/3/NWT) fərdi seçmə yolu ilə yaradılmışdır. Onur sortu lutescenss növmüxtəlifliyinə aid olub, sünbülü ağ rəngdə, dəni solğun qırmızıdır. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, zəif mum təbəqəsi ilə örtülmüşdür. Yarpaqlar iriliyinə görə aralıq təşkil edir, göy rəngdədir. Sünbül ağ rəngdə, silindirik formada olub sünbülcüklər sünbül oxunda orta seyrəklikdə yerləşmişdir. Sünbülcük pulcuğu kürəkvari formada olub, sinirlənməsi zəif, pulcuğun dişciyi qısa küt, çiyni enli düz formadadır. Sünbül uzun (10,4-10,6 sm), orta sıxlıqla (19-21 ədəd sünbülcük) səciyyələnir. Bir sünbüldə dənlərin sayı 46,5-62,8 ədəd olmaqla üç illik orta göstəricisi 52,8 ədəd təşkil edir. 1000 dənin kütləsi 39-46,2 qram, natura kütləsi 770 qramdır. Dənin şüşəvariliyi 16-54% (orta 43%) olub, dəndə zülalın miqdarı 12,9%, kleykovinanın miqdarı 32,0%-ə qədər yüksələ bilir. Sort qısaboyludur(72-86,7 sm) və orta kollanma əmsalına malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır. Sort tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Məhsuldarlığı Naxçıvan DSSM-də 37,0 s/ha, İsmayıllı DSSM-də 41.0 s/ha, Qusar DSSM-də 38,4 s/ha, Salyan DSSM-də 37,75 s/ha, Xaçmaz DSSM 40,8 s/ha, Ağdam DSSM 46,5 s/ ha olmuşdur. Onur sortunun suvarılan aran və nəmliklə təmin olunmuş dağətəyi bölgələrdə becərilməsi tövsiyə olunur.

Payızlıq bərk buğda

Kod: 1703633 Bərk buğdanın **"Rəvan"** sortu ortayetişəndir, Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığına, keyfiyyətinə və yüksək məhsuldarlığına görə fərqlənən Amerika mənşəli sort ilə yerli Ağbuğda 13 sortunun hibridindən fərdi seçmə yolu ilə yaradılmışdır. [Medca (ABŞ) x Ağbuğda-13 afine (Azərbaycan)] Orta boylu (90 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya davamlıdır. Bioloji cəhətdən yerli bərk buğda sortlarına oxşayır, kollanması orta (2,5-3), yarımpayızlıqdır. Sonuncu sünbülaltı buğumarasının içərisi dolu olur. Cücərtiləri tünd yaşıl rəngdədir, leikomelan növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, prizmaşəkilli, orta uzunluqda (9,2 sm) və sıxlıqda olub, sünbül oxunun 10 sm-də 22,8 sünbülcük yerləşir. Sünbülcük pulcuqları uzunsov-oval formada, qırmızı fonda qara rənglidir, kil dişciyi qısa (2 mm) və düzdür. Damarlanması zəif ifadə olunmuşdur, çiyni zəif çəpdir. Qılcıqları sünbüldən 1,5 dəfə uzun, sünbülə paralel, yarım kələkötür, qara rənglidir. Döyülməsi asandır. Dəni orta iri, yarımuzun, ağ rənglidir, şüşəvarilik 95-100%-dir. Potensial məhsuldarlığı dəmyədə 45-50 s/ha. 1000 dənin kütləsi 40,8-44,5 qramdır. Dəndə zülalın miqdarı 13,1%, kleykovinin miqdarı 25,5% olur. Məhsuldar kollanması 2,9 ədəd, hektara 4,0-4,5 milyon toxum səpildikdə yüksək məshsul verir. Məhsuldarlığı İsmayıllı DSSM-də 40 s/ha, Qusar DSSM-də 34 s/ha olmuşdur. Qışa və quraqlığa davamlıdır. Bərk və toz sürməyə, pas xəstəliklərinə yüksək davamlıdır. Respublikanın dəmyə və nəmliklə təmin olunmuş dəmyə bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1703533 Payızlıq yumşaq buğdanın **"Alyans"** sortu Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu tərəfindən yaradılmış, gecyetişəndir, (sinonimi-K-00518 leukomelan) sortu mürəkkəb hibrid olub SİMMT-dən introduksiya olunmuş (17-E) 2601,KS.BEZ/VRATSA//KOTAB hibrid kombinasiyasından təkrar fərdi seçmə yolu ilə yaradılmışdır. Sort leukomelan növmüxtəlifliyinə aid olub, sünbülü silindirik formada, ağ rəngdə, dəni ağdır. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub mum təbəqəsindən azaddır. Sümbülcüklər sünbül oxunda sıx formada yerləşmişdir. Sümbülcük pulcuğu lansetvari formada olub, kili və sinirlənməsi zəif, pulcuğun dişciyi dimdikvari, çiyni qalxmış formadadır. Sünbülü orta uzunluqda (9,0-10,0 sm), sıxlıqla (24,6-26,6 əd.sünbülcük) səciyyələnir. Bir sünbüldə dənlərin sayı 61,4-66,4 ədəd olmaqla üç illik orta göstəricisi 60,4 ədəd təşkil edir. 1000 dənin kütləsi 42,0-53,6 qram, dəndə zülalın miqdarı 11%, kleykovinanın miqdarı

24,2%-ə qədər yüksələ bilir. Sort orta boyludur (103,7-109,6 sm) və yüksək kollanma əmsalına (3,5-4,2əd.) malikdir.Yüksək aqrofonda yatmaya davamlıdır. Potensial məhsuldarlığı 76,0 s/ha olmuşdur. Sort tədqiqat illərində sarı və qonur pasa,unlu şehə qarşı davamlılıq göstərmişdir. Məhsuldarlığı Naxçıvan DSSM-də 36,9 s/ha, İsmayıllı DSSM-də 36.0 s/ha olmuşdur. Sortun Respublikanın suvarılan aran və həmçinin nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Payızlıq Arpa

Kod: 1604899 Payızlıq arpanın **"Nur"** sortu tezyetişəndir, Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu tərəfindən İKARDA-dan introduksiya edilmiş IBYT-IN pitomnikindən seçilən yerli şəraitə uyğunlaşmış ZSH- paralellum-21 (Entry15) nümunəsindən qışa, yatmaya və xəstəliklərə davamlılığına, boyunun orta, dən keyfiyyətinin yüksək və suvarma şəraitində məhsuldarlığının yüksək olmasına görə Əkinçilik ET İnstitunun Tərtər Bölgə Təcrübə Stansiyası şəraitində fərdi seçmə yolu ilə yaradılmışdır. Sort altıcərgəli olub Paralellum Korn növ müxtəlifliyinə aiddir. Sort payızlıqdır. Boyu 110-111 sm, gövdəsi möhkəm, yatmaya, dənin tökülməsinə tam davamlı, asan döyüləndir. Kollanması yüksəkdir (7,0-9,0 ədəd), bitkiləri kollanma fazasında yarım yerə yatan, yarpaqları tüksüz, mum təbəqəsi yoxdur, yarpaqlarının rəngi tünd yaşıldır. Sünbülü qövsvari və uzun, qılçıqları və dənləri açıq sarı rəngdədir. Uzun, xırda dişli və dağılmayandır. Sünbülü uzun (8,3-9.0 sm), sünbülcüklər sıx yerləşmişdir. Bir sünbüldə dənlərin sayı 49-50 ədəd təşkil edir. Sortun dəni orta irilikdə, açıq sarı rəngdədir. Potensial məhsuldarlığı suvarma şəraitində 60-67 s/ha-dır. 1000 dənin kütləsi 49.5-52,5 q-dır. Dəndə zülalın miqdarı 13,2% tərkibində dəyişir. Məhsuldarlığı Naxçıvan DSSM-də 35,4 s/ha, İsmayıllı DSSM-də 32 ,0 s/h olmuşdur.

Soya

Kod: 1803554 Soyanın **"Fateh"** sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunda müxtəlif mənşəli nümunələrdən fərdi seçmə üsulu ilə yaradılmışdır. Yem noxudu (Gilisine hispide L.) növünə daxildir. Gövdəsi möhkəm,dik duran, güclü budaqlanan 1,3 m -ə qədər hündürlüyündə kol əmələ gətirir. Gövdəsinin və budaqlarının rəngi sarıya çalan qonur və ya qum rəngində olur. Sortun budaqları, yarpaqları və paxlaları sıx sərt tükcüklərlə örtülüdür. Yarpaqları iri oval formada, kənarları bütöv olub, üçlüdür, yığım zamanı tam tökülür. Çiçəkləri xırda, yarpaq qoltuğunda salxım şəklində oturan (3-5 çiçək) ağ yaxud açıq-bənövşəyi rənglidir. Meyvəsi çoxtoxumlu paxladır. Paxlası qısa, eni 0,5-1,4 , uzunluğu 2,5-6 sm, paxlalarının miqdarı 2-4 ədəddir. Toxumu açıq sarı rəngdə olur. 1000 ədəd toxumun kütləsi 185-215 qramdır. Yüksək məhsuldarlığı ilə fərqlənir. Məhsuldarlığı 36 s/ha-dır. Dəninin tərkibində proteinin miqdarı 37,2-38,6%, yağ miqdarı isə 21,4-22,1% təşkil edir. Sort quraqlığa davamlıdır. Əsasən yazda becərilir. Vegetasiya müddəti 115-120 gündür. Əkin müddətindən və becərmə texnologiyasından asılı olaraq vegetasiya müddəti dəyişir. Xəstəliklərə davamlıdır. Sort mexanikləşdirlmiş yığıma yararlıdır.

Pambıq

"Orion" pambıq sortu Türkiyədə Doğu Akdeniz Tarımsal Araştırma İnstitutu tərəfindən yaradılıb. Məhsuldarlığı 2019-cu ildə Salyan DSSM-də 75.0, 2020-ci ildə 73,6 s/ha olmuşdur. Sort xəstəlik və zərərvericilərə qarşı davamlıdır. Sort orta yetişəndir. Vegetasiya günlərinin sayı 128 gündür. . Xam pambığı tökülmür. Lif çıxımı 45 %, lif keyfiyyəti VI tipin tələblərinə dolğun cavab verməklə, toxuculuq sənayesinin tələblərinə uyğundur.

Qızılgül

Kod: 1800698 "Abşeron Simfoniyası" qızılgül sortu floribunda qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında Gold Symphonie Patio. x Pink Favorite HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi iridir, ovaldır, itiucludur. Gülləri zərif çəhrayı rəngindədə, kasavaridir, iridir (4 sm hünd., 10 sm dm.), çoxləçəklidir (45-47 ləçək), az ətirlidir, tək-tək və çiçək qrupunda 3-12 sayda olur. Yarpaqları tünd-yaşıl, qalındərili, parlaqdır, yarpaqcıqları 3-5 sayda, enlidir, sağlamdır. Kolları 75-80 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır. Göbələk xəstəliklərinə qarşı çox davamlıdır. Çiçəkləməsi boldur, may ayının əvvəllərindən başlayıb dekabırn sonuna qədər davam edir. Quraqlığa və şaxtaya davamlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə asan çoxaldılır.

Kod: 1800701 "Akademik Cəlal Əliyev" qızılgül sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında Freiheitsglocke HT. x Gold Crown HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi iridir. Gülləri mərcan rəngindədə, kasavaridir, iridir (12-13 sm dm.), sıx çoxləçəklidir (75-80 ləçək), əsasən tək-təkdir, ətirlidir. Yarpaqları tünd-yaşıl, qalın dərilidir, az parıltılı, sağlamdır, yarpaqcıqları 5-7 ədəd, iridir, ovaldır, itiucludur. Kolları 90-100 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır, budaqlarda tikanları seyrəkdir. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlığa və şaxtalı günlərə davamlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasiləsizdir (mayın ikinci ongünlüyündən başlayıb iyul-avqust aylarında ara verməklə payızın sonuna qədər davam edir). Gülləri dekorativliyini 10-12 gün saxlayır. Park və xiyabanların yaşıllaşdırılmasında, həyatyanı və bağ sahələrinin abadlaşdırılmasında, həmçinin kəsiş gülü kimi istixanada əkilib-becərilməsi tövsiyə olunur.

Kod: 1800728 "Akademik Həsən Əliyev" qızılgül sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akedemiyasının Mərkəzi Nəbatat Bağında 2009-cu ildə Konfetti HT. x Pink Favorite HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə, çoxləçəkliliyinə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi iridir, girdədir, itiucludur. Gülləri moruq rəngindədə, kasavarıdır, iridir (9-10 sm dm.), sıx çoxləçəklidir (75-80 ləçək), əsasən tək-təkdir, bəzən iki-üç əlavə zəif böyüyən yan qönçəcikləri olur, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, parlaqdır, sağlamdır. Kolları 120-130 sm hündürlükdə, düzünə böyüyəndir, yığcamdır, bəzən şaxələnir, tikanları seyrəkdir. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günləri yüngül keçirir. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasilələrlədir, iyul-avqust aylarında ara verməklə payızın son aylarına qədər davam edir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır, hətta yağışlı günlərdə dekorativliyini itirmir. Yaşıllaşdırmada və bəzək bağçılığında istifadə edilməsi, həmçinin kəsiş gülü kimi istixanada əkilib-becərilməsi tövsiyə olunur.

Kod: 1800710 "Leyla" qızılgül sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında Folklore HT. x Swarthmore HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən əsasən gülünün rənginə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi enli-ovaldır, itiucdur. Gülləri iki rənglidir, üstdən qırmızı-məxməri, ləçəklərin arxasından gümüşü rənglidir, kasavarıdır, ortadır (3 sm hünd., 8 sm dm.), çoxləçəklidir (34-40 ləçək), əsasən tək-tək bəzən 3-5 sayda olurlar, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, parıltılıdır, yarpaqcıqları 5-7 sayda, enli-ovaldır (5x3,5 sm). Kolları hündürboyludur, şaxələnəndir, budaqları tikanlıdır. Xəstəlik və

ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasiləsizdir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır. Yaşıllaşdırmada bəzək kolu kimi, istixanada kəsiş gülü kimi əkilib-becərilməsi tövsiyə edilir.

Kod: 1800736 "Qara Gilə" qızılgül sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında 2009-cu ildə Folklore HT. x Nigrette HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi ovaldır, iridir. Gülləri tünd-qırmızı məxməri rəngdə, mərkəzində qara çalarlıdır, kasavarıdır, iridir (10 sm dm.), çoxləçəklidir (48-52 ləçək), ətirlidir, əsasən tək-tək bəzən 2-3 sayda olur. Yarpaqları tünd-yaşıldır, nazik dərilidir, tutqundur, yarpaqcıqları 5 ədəd, oval formada, iridir (6,5x4,5 sm). Kolları 100-120 sm hündürlükdə, şaxələnəndir, budaqları nazikdir, tikanları tək-tək, seyrəkdir. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlığa və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi ortadır, fasilələrlədir. Açılmıç gülləri 10-12 gün dekorativliyini saxlayır. Yaşıllaşdırmada və bəzək bağçılığında dekorativ bitki kimi, kəsiş gülü kimi istixanada əkilib-becərilməsi tövsiyə olunur.

Kod: 1800744 "Professor Lütfi Zadə" qızılgül sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında 2012 -ci ildə Swan Lake LCl. x Enric Palau HT. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideyinlərindən gülünün rənginə, çoxləçəkliliyinə və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi orta ölçüdə, girdədir, itiucludur. Gülləri gümüşü-cəhrayı rəngli bənövşəyi çalarlıdır, kasavaridir, iridir (3sm hünd., 9-10 sm dm.), çoxləçəklidir (42 ləçək), ətirlidir, tək-təkdir və az saylı (3-5) çiçək qrupunda olur. Yarpaqları iridir, tünd-yaşıldır, az parlaqdır, dərilidir, sağlamdır, 5 yarpaqcıqlıdır. Kolları orta hündürlükdə 65-80 sm, yaxşı yarpaqlanmışdır, yığcamdır, düzünə böyüyəndir, budaqları yaşıldır, seyrək tikanlıdır. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günləri yüngül keçirir. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasiləsizdir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsiş gülü kimi əkilib-becərilməsi tövsiyə olunur.

Kod: 1800754 "Şərqin Səhəri" qızılgül sortu Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında 2009-cu ildə Masquerade F.x Liverpool F. sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideyinlərindən gülünün rənginə, formasına və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi girdədir, itiucdur. Gülləri krem rəngində olub, ləçəkləri açıldıqca zərif çəhrayı rəngini alırlar, kasavarıdır, iridir (8-10 sm dm.), çoxləçəklidir (36-40 ləçək), çiçək qrupunda 15-28 sayda, bəzən tək-tək olurlar. Yarpaqları yaşıldır, parlaqdır, yarpaqcıqları oval şəklində iridir (5x 3,5 sm), itiucdur. Kolları orta hündürlükdə (80-90 sm), yığcamdır, budaqları yaşıldır, möhkəmdir, tikanlarıdır. Quraqlığa və şaxtalı günlərə dayanıqlıdır. Xəstəlik və ziyanvericilərə davamlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi çox boldur, qızmar iyul-avqust aylarında qısa fasilələr verməklə payızın son aylarına qədər davam edir. Açılmış gülü dekorativliyini 6-8 gün saxlayır. Yaşıllaşdırmada, landşaft memarlığında, həmçinin həyatyanı və bağ sahələrində dekorativ bitki kimi tək-tək və qrup şəklində əkilib-becərilməsi tövsiyə olunur.

Üzüm

Kod: 1400029 "Bayanşirə Süfrə" üzüm sortu botaniki əlamətlərinə və aqrobioloji xüsusiyyətlərinə görə Şərq üzüm sortları (convar orientalis subconvar caspica Negr.) ekoloji coğrafi qrupuna mənsubdur. Yarpaqları orta ölçüdə (uzunluğu 18-23 sm, eni 18-23 sm), dəyirmi formada olub, 5 dilimlidir. Ayasının üzəri zəif qabarıq yaxud hamar olub, müstəvisi düzdür. Yuxarı kəsikləri orta dərinlikdə, deşiyi tam bağlı, yaxud enli ellipsvari formada olur. Aşağı kəsiklərida orta dərinlikdə olub, yuxarı kəsiklərin forması ilə eynidir. Saplaq oyuğu bağlı və açıqdır. Dilimlərin ucundakı dişciklər iti uclu üçbucaqşəkilli və tərəfləri zəif qabarıq, ucu iti və mişarşəkilli formadadır. Kənar dişcikləri mişarvaridir. Çiçəyi ikicinslidir. Salxımı orta ölçüdə və iri (uzunluğu 13-21 sm, eni 6-13 sm), silindrik-konusvari formada və orta sıxlıqdadır. Gilələri orta ölçüdə (uzunluğu 12-18 mm, eni 12-17mm), dəyirmi formada, yaşılımtıl-sarı rəngli və simmetrikdir. Qabığı orta qalınlıqda olub, üzəri qalın mum təbəqəsi ilə örtülmüşdür. Ləti şirəlidir, xüsusi ətiri vardır. Sort gecyetişəndir. Gilələrinin tam yetişməsi sentyabr ayının axırlarına və oktyabr ayının əvvəllərinə təsadüf edir. Vegetasiya müddəti 164 gün davam edir. Kollarının böyümə gücü orta, yaxud yüksəkdir (195,4–232,0 sm). Çox yüksək məhsuldar sortdur. Barlı zoğların miqdarı 66,2%; bar əmsalı 0,96; məhsuldarlıq əmsalı 1,45; salxımların sayı 41 ədəd; salxımların orta kütləsi 201,3 qr; tənəyin məhsuldarlığı 8,0 kq; hektardan məhsuldarlıq 177,8 s/ha təşkil edir. Sort tipik texniki istiqamətlidir. Salxımların 83,4%-ni şirə, 8,2%-ni qabıq və lətin qalığı, 4,6%-ni daraq, 3,8%-ni toxum təşkil edir. 100 gilənin kütləsi 252 qr, 100 toxumun kütləsi 4 qr-dır. Giləsində şəkərlilik 17,1 q/100 sm³, titrlənən turşuluq 6,95 q/dm³-dir. Salxımları orta iriliyə malikdir, yüksək əmtəə görkəmi vardır, giləsi açıq yaşılı sarı rənglidir, şirəsi rəngsizdir, ləti bərk və süfrə istiqamətlidir.

Nar

Kod: 1604864 "Fatimə" sortu Azərbaycan Milli Elmlər Akademiyası Genetik Ehtiyatlar İnstitutu tərəfindən yaradılmış, Bala Mürsəl nar sortundan seçmə üsulu ilə alınmışdır. Sortun meyvəsi oktyabr ayının ortalarında yetişir. Kolu orta boyludur, 4-5-ci ildə tam məhsula düşür. Meyvəsinin orta kütləsi 495-580 qr, meyvənin forması yastıvari yumru, qabığın rəngi tünd qırmızı, palıdı ləkəli, gilənin endokarpa yapışma dərəcəsi çox zəif, qabığın qalınlığı 6.6 mm, gilənin uzunluğu 11.5 mm, gilənin eni 9 mm, toxumun uzunluğu 7.3 mm, 100 gilənin kütləsi 58.8 qr, 100 toxumun kütləsi 8.025 qr, şirə çıxımı 50.5%, dadı turşa şirin, şirinliyi daha çoxdur. Saxlama müddəti 3 ay (soyuducuda daha çox), bir ağacın məhsuldarlığı tam məhsula düşdükdə 30 kq, şəkər 16%, turşuluq 1.1% -dir. Dequstasiya qiyməti 5.0 baldır. Xəstəliklərə və nəqliyyatda daşınmaya qarşı davamlıdır.

Sarımsaq

Kod: 1805427 Sarımsaq bitkisinin **"Aişə"** sortu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsinə məxsusdur. Sort ortayetişən, payızlıq olub, oktyabr ayının 2-ci öngünlüyündə əkilir. Kütləvi çıxışdan yarpaqların saralmasına qədər 170-175 gün, yarpaqların yatmasına qədər 180-185 gün, məhsul yığımına qədər 185-190 gün olur. Soğanağın forması yumru-kürəşəkilli, nisbətən yuxarıya doğru istiqamətlənmişdir. Quru qabığı 4-5 qat, rəngi ağ, cüzi boz rənglidir. Dişlərin sayı 12-13, ölçüsü iri, düzülüşü düzgün, dadı acı, spesifik iyi çox tünd deyil.

Əkindən kütləvi çıxışa qədər 10-11 gün, kütləvi çıxışdan həqiqi yarpaqların əmələ gəlməsinə qədər 14-15 gün olub, kök hissəsindən əmələ gələn yarusların sayı 5-10 ədəd, gövdənin diametri 4,1-4,2 sm-dir. Yarpağın rəngi yaşıl, zəif mum təbəqəsi ilə örtülmüş, yarpaqları enli olub, 6,3- 6,5 sm, uzunluğu 43-45 sm-dir. Gövdənin hündürlüyü 1,5-1,7 metrə qədər çatır. Gövdənin baş tərəfində kiçik ölçülü hava soğancıqları çətiri əmələ gəlir, onların çəkisi 0,3-0,4 q-dır. Sortu əsasən dişlərlə, bəzən də hava soğancıqları vasitəsilə çoxaltmaq olar.

Yüksək aqrotexniki şəraitdə məhsuldarlığı hər hektardan 210-215 s/ha olabilər. Bir ədəd soğanağın çəkisi 190-270 q, bir ədəd dişin çəkisi 30-40 qramdır. Saxlanması nisbətən uzun müddətlidir. Sort quraqlığa, şaxtaya, zərərvericilərə və ekstremal şəraitə qarşı davamlıdır. Fuzarioza qarşı davamlı, yalançı unlu şeh və bakterioz xəstəliklərinə qarşı orta davamlıdır. Meyvədə quru maddə 36,2%, ümumi şəkərin 13,3 %, askorbin turşusu 11,6% -dir. Sort universal, həm də konserv və emal sənayəsində istifadə etmək üçün yararlıdır. Respublikanın sarımsaq əkilən bütün bölgələri üçün yararlıdır.

Kod: 1805426 Sarımsaq bitkisinin **"Möcüzə"** sortu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsinə məxsusdur. Sort vegetativ mutant formadan çox saylı seçmələr yolu ilə yaradılmışdır. Sort ortagec yetişən, əkindən kütləvi çıxışa qədər 9-10, kütləvi çıxışdan həqiqi yarpaqların əmələ gəlməsinə qədər 12-15 gündür.Kök hissəsindən əmələ gələn yarusların sayı 7-10 ədəd, gövdənin diametri 4,0-4,3 sm-dir. Yarpağın rəngi tünd yaşıl, zəif mum təbəqəsi ilə örtülmüş, yarpaqları enli olub, 6,4-6, 6 sm, uzunluğu 45,0-48,0 sm-dir. Soğanağın forması kürəşəkillidir. Quru qabığı 3-4, rəngi ağ, çox cüzi miqdarda sarımtıl, dadı yarımacıdır, spesifik iyi çox tünd deyil. Dişsizdir, rəngi ağdır. Sort gövdələnəndir, payızlıqdır, oktyabr ayının 2-ci ongünlüyündə əkilir. Kütləvi çıxışdan yarpaqların saralmasına qədər 175-180, yarpaqların yatmasına qədər 180-190, məhsul yığımına qədər 185-190 gün olur. Gövdəsinin hündürlüyü 1,5-1,8 m -ə qədər çatır.Gövdənin baş tərəfində kiçik ölçülü hava soğancıqları çətiri əmələ gəlir, onların çəkisi 0,2-0,4 q-dır. Sortu hava soğancıqları vasitəsilə də çoxaltmaq olar. Yüksək aqrotexniki şəraitdə məhsuldarlığı hər hektardan 205-210 s/ha -dır. Bir ədəd soğanağın çəkisi 140-250 q-dır. Sort quraqlığa və şaxtaya, yalançı unlu şeh, fuzarioz və bakterioz xəstəliklərinə qarşı davamlıdır. Quru maddə 38,3%, ümumi şəkər 7,77%, askorbin turşusunun miqdarı 8,5 mq % - dır. Sort konserv sənayesində qurudularaq toz halında istifadə olunmaq üçün yararlıdır. Respublikanın sarımsaq əkilən bütün bölgələri üçün yararlıdır.

Yemiş

Kod: 1704711 Yemiş bitkisinin **"Nihal"** sortu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsinə məxsusdur. Sort orta tezyetişəndir. Kütləvi cücərmədən meyvələrin tam yetişməsinin başlanğıcına qədər günlərin sayı 70-75 gündür. Kütləvi çıxışdan axrıncı yığıma qədər 96 gündür. Yüksək aqrotexniki qulluğa tələbkar, işığa, günəşə, istiliyə çox həssasdır. Əsas tağın uzunluğu 230.0- 240.0 sm- dir. Yarpaq ayasının uzunluğu 10.9-13.2, eni 13.8-16.5 sm, rəngi tünd yaşıldır. Meyvəsi uzunsov, yumurtavaridir. Meyvənin uzunluğu 25.3-30.8, eni isə 13.7-18.3 sm-dır. Meyvənin çəkisi 2.0-3.4 kq-dır. Səthi hamardır, xırda torludur, rəngi yaşımtıl-sarıdır. Yemişin üzərində seyrək halda yaşıl rəngdə xətlər müşahidə olunur. Qabığın qalınlığı orta, qabığa tərəf kəsimin rəngi yaşıla çalan açıq sarı, ləti qalındır. Təzə halda istifadəyə yararlıdır. Meyvədə quru maddə 10.5 %, ümumi şəkər 8.7%, C vitamini 19.1 mq % təşkil edir. Orta məhsuldarlığı hər hektardan 477.1 sentnerdir. Toxumçuluq sahəsində əkilmiş bir meyvədən 40.5- 50.3 qram, hektardan isə 200 kq yüksək keyfiyyətli reproduksiyalı toxum istehsal olunur. Sort fuzarioz xəstəliyinə qarşı davamlıdır.

Qoyun cinsi

"Pirəsora" qoyun cinsinin gövdəsi kifayət qədər inkişaflı, ayaqları hündür və möhkəmdir. Rəngi əsasən boz, qonur olur. Baş və ayaqları tünd, açıq qəhvəyi, sarı rəngdə olur. Yunu, tarım qabadır və sıxdır. Əti dadlı və zərifdir. Qoyunlar yağlı quyruqludur. Heyvanları birtiplidir. Qulaqları iri, kürə və kərə olur. Qoçları buynuzsuzdur, bəzən xırda buynuzlu qoçlara da rast gəlmək olur. Bu qoyunları fərqləndirən eksteryer göstəricilərdən biri törədici qoçların

burnunun üstündə dırda (qabarcıq) olmasıdır. Törədici qoçların orta canlı kütləsi 65-85 kq-a qədər olur. Ana qoyunların canlı kütləsi isə 40-60 kq-a qədər olur. Yun məhsuldarlığı qoçlarda 4-5 kq, yunun uzunluğu 12-17 sm olur. Ana qoyunlarda yun məhsuldarlığı 2,5-3,5 kq, yunun uzunluğu isə 11-16 sm olur. 100 ana qoyundan ümumi təsərrüfat şəraitində 85-90, yaxşı yemləmə və bəsləmə şəraitində 100-110 bala alınır. Pirəsora qoyun cinsi Piroplazmoz xəstəliyinə qarşı dözümlüdür.

2022-ci ildə patent verilən bitki sortlarının qısa xarakteristikası

Payızlıq yumşaq buğda

Kod: 1801657 Yumşaq buğda sortu "Yubiley-90" Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında 7 WON-SA № 465 x Ferrigineum 2/19 hibridindən çoxqatlı fərdi kütləvi seçmə yolu ilə alınmışdır. Sort intensiv tipli olub orta boylu (90-105 sm), gövdəsi orta qalınlıqda və möhkəm, yatmaya davamlıdır. Kollanması orta (2,8-3,8 ədəd), yarımyerəsərilən, tezyetişəndir. Cücərtiləri yaşıl rəngdədir. Sonuncu-sünbülaltı buğumarasının içi boşdur. Yumşaq buğdanın erythrospermum növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, orta uzunluqda (8,6-9,2 sm) və sıx, sünbül oxunun 10 sm-də 17,8-18,5 ədəd sünbülcük yerləşir. Sünbül əksər hallarda dik dayanır. Sünbülcük pulcuqları qısa, oval formada olub ağrənglidir. Damarlanması zəif olmaqla yan damar və kil aydın seçilir. Sünbülcük pulcuqları qısa olmaqla orta şişkindir. Avropa buğdalarında olduğu kimi əsasında basıqlıq aydın görsənir, kil dişciyi orta uzunluqda (4-5 mm), inkişaf etmişdir və düzdür. Qılçıqları 4-7 sm uzunluqdadır, dağınıq, kələkötürdür və ağ rəngdədir. Sünbülün döyülməsi çox asandır. Dəni nisbətən xırda, yumurtavari, qırmızı rəngli, orta şüşəvari (66-72 %) şırımı orta və ensizdir. Yubiley 90 sortunun dəmyə şəraitində potensial məhsuldarlığı yüksək olub 55,9-69,4 s/ha təşkil edir. Orta sabit məhsuldarlığa malik, adaptiv sortdur. Yubiley 90 sortunun 1000 dəninin kütləsi 36,5-39,6 qr, natura kütləsi 758 qr/l, əsas sünbüldə dənlərin sayı 45-48, əsas sünbüldə dənin kütləsi 1,64-1,90 qramdır. Dəndə zülalın miqdarı ortadır 12,6-13,3 %, kleykovina 26,5-28,7 % -dir. Yubiley 90 sortunun məhsuldar kollanması 2,8-3,8 olduğundan hektara 4-4,5 milyon cücərən toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, şaxtaya, quraqlığa davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlıdır. Sələf kimi qara herik və paxlalı bitkilər daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Optimal səpin üddəti 01-15 oktyabr arasıdır. Sınaq illərində orta məhsuldarlığı İsmayıllı DSSM-də 55,9 s/ha, Salyan DSSM-də 2020-ci ildə 43,5 s/ha, 2021-ci ildə isə 45,0 s/ha olmuşdur. "Yubiley-90" sortunun Azərbaycanın dağlıq və dağətəyi nəmliklə təmin olunmuş bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1805268 Gülüstan-100 Yeni payızlıq yumşaq buğda sortu "Gülüstan-100" Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında, 13thIWWYT-2010-2011 pitomnikindən seçilmiş 2180K (2163//P/3/W/062 A*HYA) sort nümunəsindən təkrar fərdi seçmə yolu ilə alınmışdır. "Gülüstan-100" sortu yarımintensiv tipli, orta boyludur (85,0-96,0 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya davamlıdır. Kollanması orta (2,60-3,50 ədəd), yarımyerəsəriləndir – yarımyerəsərilən, tezyetişəndir. Cücərtiləri açıq yaşıl rəngdədir. Yumşaq buğdaların (Triticum aestivum L.) Asiya növaltısının (subsp.hadropyrum (Flaksb.) Tzvel.), yarımkobud növmüxtəlifliklər qrupunun (convar.semirigidum A.Filat. et Dorof.), yarımkobud növmüxtəlifliklər yarımqrupunun (subconvar.semirigidum A.Filat. et Dorof.) pseudoerythrospermum növmüxtəlifliyinə aiddir. Bəzi morfobioloji əlamətlərinə görə Avropa buğdalarına oxşayır, sonuncu – sünbül altı buğumarasının içərisi boşdur. Sünbülü silindrik, qılçıqlı, orta uzunluqda (9,20-9,60 sm) və sıxdır - sünbül oxunun 10 sm-də 18,60-19,70 sünbülcük yerləşir. Sünbülcük pulcuqları uzunsov-oval formada, ağ rənglidir. Damarlanması, xüsusən də

əsas yan damar və kil çox aydın ifadə olunmuşdur. Sünbülcük pulcuqları nisbətən qısa və şişkindir, Avropa buğdalarında olduğu kimi əsasında basıqlıq aydın görsənir, kil dişciyi orta uzun (5-6 mm), düzdür, çiyni çəpdir. Qılçıqları sünbüldən 8-9 sm uzun, dağınıq, ağ rənglidir. Sünbülün döyülməsi asandır. Dəni nisbətən xırda, yarımyumru, qırmızı rəngli, orta şüşəvaridir (75-82%), kəkil yaxşı inkişaf etmişdir, şırımı dayaz, ensizdir. "Gülüstan-100" sortunun potensial məhsuldarlığı orta yüksəkdir – 45,0-74,6 s/ha. Becərmə illərindən asılı olmayaraq sabit orta məhsuldarılğa malik, adaptiv sortlardandır. "Gülüstan-100" sortunda 1000 dənin kütləsi 38,4-41,1 q, natura kütləsi 785,0 q, əsas sünbüldə dənlərin sayı 47,0-51,0 ədəd, əsas sünbüldə dənlərin kütləsi 2,60-2,85 qramdır. Dəndə zülalın miqdarı ortadır (12,9-13,1%), kleykovina isə 23,6-30,8% arasında olur. "Gülüstan-100" sortunun məhsuldar kollanması orta (2,6-3,5 ədəd) olduğundan, hektara 4,0-4,5 milyon toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, şaxtaya, quraqlığa, yüksək temperatura davamlılığı orta yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlıdır. Sələf kimi qara və bitkili herik daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Optimal səpin müddəti oktyabrın 1-ci ongünlüyüdür.
"Gülüstan-100" sortunun Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1903892 Yeni payızlıq yumşaq buğda sortu "Lider" Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında "Baba 75" sortundan morfoloji əlamətlərinə görə fərdlərin kütləvi seçilməsi yolu ilə alınmışdır. Sort intensiv tipli olub orta boyludur (88-95 sm), gövdəsi orta qalınlıqda və möhkəmlikdə, yatmaya davamlıdır. Kollanması orta (2,8-3,4 ədəd), yarım dikdir, payızlıq, ortayetişəndir. Cücərtiləri tünd yaşıl rəngdədir. Sonuncu – sünbülaltı buğumarasının içərisi boşdur. Sünbülü silindrik, asiya tipli yarımsərt , başı aşağı əyilən qılçıqlı, orta uzunluqda (8,5-9,7 sm) və sıxlıqdadır, sünbül oxunun 10 sm-də 19,2-19,8 ədəd sünbülcük yerləşir. Sünbülcük pulcuqları qısa, oval formada olub ağ rənglidir. Damarlanması zəif olmaqla yan damar və kil aydın görünür. Sünbülcük pulcuqları qısa olmaqla orta şişkindir. Avropa buğdalarında olduğu kimi əsasında basıqlıq aydın görsənir, kil dişciyi orta uzunluqda olub (4-5 mm), inkişaf etmişdir və düzdür. Qılçıqları 4-7 sm uzunluqdadır, dağınıqdır, kələkötürdür və ağ rəngdədir. Sünbülün döyülməsi çox asandır. Dəni orta, yumurtavari, qırmızı rəngli, şüşəvari (75-85 %) şırımı ensizdir."Lider" sortunun dəmyə şəraitində potensial məhsuldarlığı yüksək olub 50,0-60,0 s/ha təşkil edir. Becərmə illərindən asılı olmayaraq orta sabit məhsuldarlığa malik, adaptiv sortlardandır. "Lider" sortunun 1000 dəninin kütləsi 29,2-32,6 qr, natura kütləsi 752 qr/l, əsas sünbüldə dənlərin sayı 44-50, əsas sünbüldə dənin kütləsi 1,64-1,90 qramdır. Dəndə zülalın miqdarı ortadır 12,1-12,3 %, kleykovina 25,8-26,2 % arasındadır."Lider" sortunun məhsuldar kollanması 2,8-3,4 ədəd olduğundan hektara 4-4,5 milyon cücərən toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, şaxtaya, quraqlığa davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlılığı yüksəkdir. Sələf kimi qara herik və paxlalı bitkilər daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Optimal səpin müddəti 01-15 oktyabr arasıdır."Lider" sortunun Azərbaycanın nəmliklə stabil təmin olunmuş dağlıq və dağətəyi dəmyə bölgələr və suvarılan aran bölgələr bölgələrində becərilməsi tövsiyə olunur.

Kod: 1904893 Payızlıq yumşaq buğda sortu "Çempion" Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında Sönməz x Erythrospermum 495 hibridindən təkrar fərdi seçmə yolu ilə alınmışdır. Sort intensiv tipli olub orta boyludur (90-100 sm), gövdəsi orta qalınlıqda və möhkəmlikdə, yatmaya davamlıdır. Kollanması orta (3,0-3,6 ədəd), yarım dikdir, həyat tərzi yarımpayızlıq, tezyetişəndir. Cücərtiləri yaşıl rəngdədir. Sonuncu – sünbülaltı buğumarasının içərisi boşdur. Yumşaq buğdanın erythrospermum növmüxtəlifliyinə aiddir. Sünbülü iyşəkilli qılçıqlı, orta uzunluqda (8,3-9,5 sm) və sıxlıqdadır, sünbül oxunun 10 sm-də 19,2-19,8 ədəd sünbülcük yerləşir. Sünbül əksər hallarda dik dayanır. Sünbülcük pulcuqları qısa, oval formada olub ağrənglidir. Damarlanması zəif olmaqla yan damar və kil aydın ifadə olunmuşdur. Sünbülcük pulcuqları qısa olmaqla orta şişkindir. Avropa buğdalarında olduğu kimi əsasında basıqlıq aydın görsənir, kil dişciyi orta uzunluqda olub (4-5 mm), inkişaf etmişdir və

düzdür. Qılçıqları 4-7 sm uzunluqda, dağınıq, kələkötürdür və ağ rəngdədir. Sünbülün döyülməsi çox asandır. Dəni orta, yumurtavari, qırmızı rəngli, orta şüşəvari (66-72 %) şırımı ensizdir."Çempion" sortunun dəmyə şəraitində potensial məhsuldarlığı yüksək olub 50,0-60,0 s/ha təşkil edir. Becərmə illərindən asılı olmayaraq orta sabit məhsuldarlığa malik, adaptiv sortlardandır. "Çempion" sortunun 1000 dəninin kütləsi 36,5-39,6 qr, natura kütləsi 758 qr/l, əsas sünbüldə dənlərin sayı 45-48, əsas sünbüldə dənin kütləsi 1,64-1,90 qramdır. Dəndə zülalın miqdarı ortadır 12,6-13,3 %, kleykovina 26,5-28,7 % arasındadır."Çempion" sortunun məhsuldar kollanması 3,0-3,6 ədəd olduğundan hektara 4-4,5 milyon cücərən toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, şaxtaya, quraqlığa davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlılığı yüksəkdir. Sələf kimi qara herik və paxlalı bitkilər daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Optimal səpin müddəti 01-15 oktyabr arasıdır. "Çempion" sortunun Azərbaycanın nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Bərk buğda

Kod: 1805283 Bərk buğda sortu "Xudafərin" Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığına, boyunun hündürlüyünün orta olmasına, keyfiyyətinə və yüksək məhsuldarlığına görə fərqlənən yerli (Əlincə 84 x Qaraqılçıq 2) nümunəsi ilə Qaraqılçıq 2 sortunun hibridindən fərdi seçmə yolu ilə yaradılmışdır. Orta boylu (97,7 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya davamlıdır. Bioloji cəhətdən yerli bərk buğda sortlarına oxşayır, kollanması orta (2,8-3,0), yarımyerəsərilən, payızlıq sortdur. Ortayetişəndir. Sonuncu, sünbülaltı buğumarasının içərisi dolu olur. Cücərtiləri yaşıl rəngdədir, hordeiforme növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, prizmaşəkilli, orta uzunluqda (6,5-6,7 sm) və sıxlıqda olub, sünbül oxunun 10 sm-də D= 21,0 sünbülcük yerləşir. Sünbülcük pulcuqları uzunsov-oval formada, qırmızı rənglidir. Qılçıqları sünbüldən 1,5 dəfə uzun, sünbülə paralel, qırmızı rənglidir. Döyülməsi asandır. Dəni orta iri,uzunsov, ağ rəngli, şüşəvariliyi 89,0-100 %-dir. Potensial məhsuldarlığı dəmyədə 43,2-59,0 s/ha. 1000 dənin kütləsi 40,8-42,6 qramdır. Dəndə zülalın miqdarı 13.5%, kleykovinın miqdarı 28,5% olur. Məhsuldar kollanması 2,9-3,0 ədəd, hektara 4,0-4,5 milyon toxum səpildikdə yüksək məhsul verir. Qışa, quraqlığa davamlı, yüksək temperatura davamlılığı yüksəkdir. Bərk və toz sürməyə, pas xəstəliklərinə davamlıdır.
Respublikanın dəmyə və nəmliklə təmin olunmuş dəmyə bölgələrində becərilməsi tövsiyə olunur.

Yonca

Kod: 1705491 Yoncanın "Lider" sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunda müxtəlif mənşəli (Rusiya) nümunələrdən fərdi seçmə üsulu ilə yaradılmışdır.Medicago sativa növünə daxildir. Bitkinin kolu dikduran, budaqlanması yüksək, gövdəsi yarımdolu və zərifdir. Hündürlüyü 85-93 sm, olan yarpaqlanması 50,3%-dir. Yarpaqları tünd yaşıl, üçlü, ovalvari formada olur. Çiçək qrupunun tacı silindirvari, uzunluğu 3,5-6,0 sm-dir. Çiçək qrupunun tacı tünd bənövşəyidir. Paxlası qıvrım (3-4), rəngi açıq qəhvəyi, toxumu böyrəkvarı, rəngi açıq-sarıdır. 1000 ədəd dənin mütləq çəkisi 2,6-2,8 qramdır. Erkən yazda və çalımlardan sonra tez inkişaf edir. Yaz vegetasiyasının başlanğıcından birinci çalıma qədər olan dövr 79-81 gün, çalımlararası isə 35-45 gün təşkil edir. Birinci çalımdan toxumun yetişməsinə qədər olan dövr 85-90 gündür. İldə dörd çalım aparılır. İqlim şəraitindən, suvarmadan asılı olaraq 5, hətta 6 çalım da aparmaq olar. Sort quraqlığa və qışa davamlıdır, xəstəliklərə yoluxmur. Yüksək məhsuldarlığı ilə fərqlənir. Yaşıl kütlə məhsulu orta hesabla 776,2-807,0 sen./ha, quru ot 192,0-200,0 sen./ha, toxum isə 4,4-4,6 sen./ha olmuşdur. Tərkibində proteinin miqdarı 21,92% təşkil etməklə standartdan 1,57% artıqdır.

Kod: 1903215 Yoncanın "Göyəzən" sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunda müxtəlif mənşəli (Bolqarıstan) nümunələrdən kütləvi seçmə üsulu ilə yaradılmışdır. Medicago sativa növünə daxildir. Bitkinin kolu dikduran, budaqlanması yüksək, gövdəsi yarımdolu və zərifdir. Hündürlüyü 98-120 sm, olan yarpaqlanması 50-51 %-dir. Yarpaqları tünd yaşıl, üçlü, ovalvari formada olur. Çiçək qrupunun tacı silindirvari, uzunluğu 3,5-6,0 sm-dir. Çiçək qrupunun tacı tünd bənövşəyidir. Paxlası qıvrım (3-4), rəngi qəhvəyi, toxumu böyrəkvarı, rəngi açıq-sarıdır. 1000 ədəd dənin mütləq çəkisi 2,2 qramdır. Erkən yazda və çalımlardan sonra tez inkişaf edir. Yaz vegetasiyasının başlanğıcından birinci çalıma qədər olan dövr 79-81 gün, çalımlararası isə 35-45 gün təşkil edir. Birinci çalımdan toxumun yetişməsinə qədər olan dövr 85-90 gündür. İldə 4 çalım aparılır. İqlim şəraitindən, suvarmadan asılı olaraq 5, hətta 6 çalım da aparmaq olar. Sort quraqlığa və qışa davamlıdır, xəstəliklərə yoluxmur. Yüksək məhsuldarlığı ilə fərqlənir. Yaşıl kütlə məhsulu orta hesabla 780-810 sen./ha, quru ot 195-200 sen./ha, toxum isə 3,3-4,0 sen./ha olmuşdur. Tərkibində proteinin miqdarı 21,93% təşkil etməklə standartdan 4,6% artıqdır. Sort mexanikləşdirilmiş yığıma yararlıdır.

Noxud

Kod: 1801267 Noxudun "Ləziz" sortunun forması kolvari olub, hündürlüyü 75-85 sm olur. Sortun qış qabağı səpinlərdə vegetasiya müddəti aran bölgələrdə 170-175 gün, dağətəyi bölgələrdə isə 230-235 gün təşkil edir. Yarpaqları tək lələkvari, iri və kənarları dilimlidir. Yatmaya və dənin tökülməsinə tam davamlıdır. Ona görə də Mexaniki yığım üçün əlverişlidir. Növmüxtəlifliyi Cicer arietinum L.v transkaukazikum. Çiçəyin xarakteri tək, rəngi ağ, çiçək saplağı orta uzunluqda, rəngi yaşıldır. Paxlanın tam yetişmə dövründə rəngi sarıdır. Dəni iri, forması künclü, rəngi sarımtıl, səthi hamardır. Sortun qış qabağı səpinlərdə üçillik orta dən məhsuldarlığı dəmyədə 1,85 t/ha-ya qədər olur. Potensial məhsuldarlığı isə 2,7 t/ha təşkil edir. 1000 dənin kütləsi 370-400 qramdır. Dəndə zülalın miqdarı 25 - 27%-dir. Yaxşı dad keyfiyyətinə maklikdir. Sort dənlik istiqamətlidir və ərzaq üçün qiymətlidir. Xəstəliklərə və iqlim şəraitinə davamlılığı: Sort askoxitoz xəstəliyinə, quraqlığa və qışa davamlıdır. Əsasən respublikanın nəmliklə müxtəlif dərəcədə təmin olunan aran, dağətəyi dəmyə bölgələrdə becərilməsi tövsiyə olunur. Sort üçün ən yaxşı sələf herik, dənli bitkilər, aran suvarma rayonlarında isə taxıl və cərgəarası becərilən bitkilər hesab olunur. Səpin müddəti: Respublikanın dağlıq və dağətəyi bölgələrində qış qabağı səpinlər noyabrın ikinci və üçüncü, Muğan və digər aran bölgələrində noyabrın üçüncü və dekabrın birinci, yaz səpinləri isə fevralın üçüncü və martın birinci ongünlükləri aralığı hesab olunur. Səpin norması: optimal səpin müddətində dəmyə bölgələrində hektara 300-350 min, suvarma şəraitində isə 400-450 min cücərən toxum səpilməlidir.

Lərgə

Kod: 1703628 Lərgə bitkisinin "Xəsil" sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunda müxtəlif mənşəli yabanı nümunələrdən fərdi seçmə üsulu ilə yaradılmışdır. Tüklü (payızlıq) lərgə (Vicia villosa) növünə daxildir. Gövdəsi nazik, üzəri tükcüklərlə örtülü əyiləndir, hündürlüyü 100-120 sm, olub yatmay meyillidir. Yarpaqları cütləkşəkillidir. Nəhayəti bığcıqla qurtarır. Yarpaq lələyində yarpaqcıqların miqdarı 6-10 cüt olub, forması lansetvaridir. Hamaşçiçəyi salxımdır. Çiçəkləri bənövşəyi rənglidir. Çiçəkləmə aşağı yarusdakı çiçəklərdən başlayır. Çarpaz tozlanandır. Çiçəkləmə müddəti 15-20 gün davam edir. Paxlası tünd qonur rəngli, yastılaşmış, uzunsov-romba oxşar formalıdır. Paxlada dənlərin miqdarı 2 ədəddən 6 ədədə qədərdir. Toxumlar şarşəkilli və qara rənglidir. 1000 ədəd dənin mütləq çəkisi 25-32 qramdır. Erkən yazda tez inkişaf edir. Yaz əkinlərində çiçəkləməyə qədər olan dövr 60-65 gün təşkil edir. Sort quraqlığa və qışa davamlıdır. Həm payızda, həm də yazda becərilir. Payız əkinləri normal qışlayır və 16ºC şaxtaya dözür. Vegetasiya müddəti əkin müddətidən və becərmə texnologiyasından asılı olaraq

dəyişir. Xəstəliklərə yoluxmur. Yüksək məhsuldarlığı ilə fərqlənir. Yaşıl kütlə məhsulu orta hesabla 386,8-396,8 sen./ha, quru ot 101,0-104,4 sen/ha toxum isə 56,7-58,5 sen./ha olmuşdur. Tərkibində proteinin miqdarı 22,8% -dir. Sort mexanikləşdirilmiş yığıma yararlıdır.

Soya

Kod: 1904531 Soya bitkisinin "Mərcan" sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunda müxtəlif mənşəli nümunələrdən kütləvi seçmə üsulu ilə yaradılmışdır. Soya (Glycine hispida L.) növünə daxildir.Gövdəsi möhkəm, dik duran, güclü budaqlanan 1,3 metrə qədər hündürlüyündə kol əmələ gətirir. Gövdəsinin və budaqlarının rəngi sarıya çalan qonur və ya qum rəngində olur. Sortun budaqları, yarpaqları və paxlaları sıx sərt tükcüklərlə örtülüdür. Yarpaqları iri oval formada, kənarları bütöv olub, üçlüdür, yığım zamanı tam tökülür. Çiçəkləri xırda, yarpaq qoltuğunda salxım şəklində oturan (3 5 çiçək) açıq-bənövşəyi rənglidir. Meyvəsi çoxtoxumlu paxladır. Paxlası qısa, nəhayəti əyilmiş vəziyyətdədir, eni 0,5-1,4 sm, uzunluğu 2,5-6 sm-dir. Qısa, şişkin, qabarıq şəkildə olan paxlaların dimdiyi çox qısa olur. Toxumu oval-yastı, sığallı və parlaqdır. Paxlada dənlərin miqdarı 2-3 ədəddir. Toxumu açıq sarı rəngdə olur. 1000 ədəd toxumun kütləsi 180 qramdır. Yüksək məhsuldarlığı ilə fərqlənir. Məhsuldarlığı orta hesabla yaşıl kütlə üzrə 540-642 s/ha, quru ot üzrə 83-107 s/ha, toxum üzrə isə 40-45 s/ha olur. Dəninin tərkibində proteinin miqdarı 37,4-38,2% yağ miqdarı isə 20,8-21,7% təşkil edir. Sort quraqlığa davamlıdır. Əsasən yazda becərilir. Vegetasiya müddəti əsasən 142 gündür. Əkin müddətidən və becərmə texnologiyasından asılı olaraq vegetasiya müddəti dəyişir. Xəstəliklərə yoluxmur. Sort mexanikləşdirilmiş yığıma yararlıdır.

Kartof

Kod: 1900124 Kartofun "Turan" sortu S,Tubereson növünə aiddir (2n=48) və Tacikistandan alınmış 302372,2_klonunun populyasiyasından fərdi klon seçmə üsullu ilə alınmışdır. Klonun valideyin forması KONDOR x C93. 154-dür. Tez yetişkəndir, mətbəx sortudur. Yüksək dad keyfiyyətinə malikdir. Kolu hündür olub dik durandır. Cüclü kök sisteminə malikdir. Stolonları qısadır. Yarpaqları orta ölçülüdür. Tünd yaşıl rəngli olub parlaqdır. Çiçəyi ağdır. Çiçək açması zəif olub qısamüddətlidir. Çiçək saplağı orta böyüklükdə, yaşıl rəngdədir. Kasacıq orta ölçülüdür. Qönçəsi tez açılan, qısa, tükcüklə örtülüdür. Süpürgəsi orta, dardır. Xarici, daxili çox ləçəkləri yoxdur, tozcuqu düzgün formada olub, qısa müddətlidir. Tozcuq stunu silindirikdir. Erkəkcik saplağı ağ rəngilidir. Tozcuğu azdır. Giləmeyvə əmələ gətirməsi seyrəkdir. Stüncuq zəif qalxandır. Dişicik yaşıl rəngdədir. Yumruları uzunsov açıq sarı rəglidir. Əmtəəlik yumruların çəkisi 80-100 qramdır. Lətin rəngi açıq sarıdır. Kəsdikdə qaralmır. Nişastanın miqdarı 15,6%-dir. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma yararlıdır. Virus və fitoftora xəstəliyinə nisbi davamlıdır. Yumrunun qabığının tipi hamardır. Gözcükləri orta və dərindir. Bişirildikdə dağılan olub, həm isti, həmdə soyuq halda çox dadlıdır.

Kod: 1900138 Kartofun "Uğur" sortu S.tubersum növünə aiddir və Tacikstandan alınmış 302478,1 klonunun populyasiyasından fərdi klon seçmə üsulu ilə alınmışdır. Klonun valideyn forması TJTJA x C 93, 1,54-dür. Tez yetişəndir. Yüksək dad keyfiyyətinə malikdir. Kolu yığcam olub dikdurandır. Zəif kök sisteminə malikdir. Stolonları qısadır. Yarpaqları orta ölçülüdür. Tünd yaşıl rəngdə olub, parlaqdır. Çiçəyi bənövşəyidir. Çiçək açması zəif olub qısa müddətlidir. Çiçək saplağı orta böyüklükdə olub, yaşıl rəngdədir. Kasacıq orta ölçuludur qöncəsi tez açılan, qısa seyrək tükcüklərlə örtülüdür. Süpürgəsi qısa, dardır. Xarici ləçəkləri yoxdur.

Tozcuğu düzgün formalı olub qısa müddətlidir. Tozcuq sütunu silindrikdir. Erkəkcik saplağı ağ rəngdədir.Tozcuğu azdır, konusvaridir. Giləmeyvə əmələ gətirməsi seyrəkdir. Sütuncuq zəif qalxandır. Dişicik yaşıl rəngdədir.Yumruları yumrudur, açıq qırmızı rəngdədir. Əmtəəlik yumruların çəkisi 80 q – dır. Lətin rəngi krem rənglidir. Kəsdikdə qaralmır. Nişastanın miqdarı 14,5% - dır.Saxlanma qabiliyyəti ortadir. Mexaniki yığıma yararlıdır. Virus və fitoftora xəstəliyinə nisbi davamlıdır. Yumrunun qabığının tipi hamardır. Bişirdikdə dağılan olub isti halda çox dadlı, soyuq halda dadlıdır.

Kod: 1900147 Kartofun "Vaqif" sortu S.tubersum növünə aiddir və Tacikstandan alınmış 302328,9 klonunun populyasiyasından fərdi klon seçmə üsulu ilə alınmışdır. Klonun valideyn forması DESİREE x 92. 187-dir. Tez yetişəndir. Mətbəx tipli sortdur. Yüksək dad keyfiyyətinə malikdir. Kolu orta böyüklükdə olub dikdurandır. Güclü kök sisteminə malikdir. Stolonları ortadır. Yarpaqlar orta ölçülüdür. Tünd yasıl rəngdədir. Tutqundur. Çiçəyi ağ rəngdədir. Çiçək açması ortadır. Uzunmüddətlidir. Çiçək saplağı orta ölçülüdür, açıq yaşıl rəngdədir. Kasacıq orta ölçülü olub qönçəsi tez açılandır. Tükcüksüzdür. Süpürgəsi ortadır. Xarici ləçəkləri yoxdur. Tozcuğu konusvaridir. Tozcuq sütunu slindirikdir. Erkəkcik saplağı ağ rəngdədir. Tozcuğu ortadir. Giləmeyvə əmələ gətirməsi seyrəkdir. Sütuncuq zəif qalxandır, dişicik yaşıl rəngdədir. Yumuruları yumuru ovaldır. Açıq sarı rəngdədir. Əmtəəlik yumuruların çəkisi 80- 100 qr kəsdikdə qaralmır. Nişastanın miqdarı 15,8-16,0% -dır. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma yararlıdır. Virus və fitoftora xəstəliyinə nisbi davamlıdır. Yumurunun qabığının tipi hamardır. Gözcükləri dayazdır. Bişirdikdə dağılan və tez bişən olub həm isti həm də soyuq halda çox dadlıdır.

Kod: 1900156 Kartofun "Çənlibel" sortu S.tubersum növünə aiddir və Tacikistandan alınmış 30348,1 klonunun populyasiyasından fərdi klon seçmə üsulu ilə alınmışdır. Klonun valideyn forması C 91.640 x C 93. 1,54-dür. Tez yetişəndir. Mətbəx tipli sortdur. Yüksək dad keyfiyyətinə malikdir. Kolu alçaq olub dikdurandır. Zəif kök sisteminə malikdir. Stolonları qısadır. Yarpaqları xırdadır. Tünd yaşıl rəngdədir.Çiçək açması zəif olub qısa müddətlidir. Çiçək saplağı qısadır. Çiçəyi ağ rəgdədir. Kasacıq orta ölçuludur qöncəsi tez açılandır. Tozcuğu konusvaridir. Giləmeyvə əmələ gətirmir. Sütuncuq zəif qalxandır.Yumruları yumru olub, açıq sarı rəgdədir. Əmtəəlik yumruların çəkisi 80-100 qr-dır. Kəsdikdə qaralmır. Nişastanın miqdarı 15,0%-dir. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma davamlıdır. Virus və fitoftora xəstəliyin+G5ə nisbi davamlıdır. Yumruların qabığının tipi hamardır, gözücükləri orta, dayazdır. Bişirildikdə dağılır, isti və soyuq halda yüksək dada malikdir.

Pambıq

Kod: 1801689 "Ağdaş-3 yaxşılaşdırılmış" pambıq sortu AMEA Genetik Ehtiyatlar İnstitutu tərəfindən yaradılıb. Sortun orjinal başlanğıcı Ağdaş-3 sortu olmaqla, seçmə və öz-özünə tozlandırma ilə alınmışdır. Sort sıfır tipli budaqlanmaya və kompakt kol formasına malikdir. Sortun lif keyfiyyəti IV- V tipə aitdir. Yüksək məhsuldarlığı ilə yanaşı yüksək lif keyfiyyətinə malik olması yeni sortu Ağdaş-3 sortundan fərqləndirir. Bitkinin hündürlüyü 70-80 sm, forması kompakt, monopodial budaqların sayı 14-15 dir. Gövdə rəngi yaşıl, formaca dikdir. Yatmaya davamlıdır.Vegetasiya günlərinin sayı 116 gündür. Xam pambığı tökülmür. Lif çıxımı 36 %, lif keyfiyyəti VI tipin tələblərinə dolğun cavab verməklə, toxuculuq sənayesinin tələblərinə uyğundur. Məhsuldarlığı Salyan DSSM-də 2018-ci ildə 50,1 s/ha, 2021-ci ildə 42,5 s/ha olmuşdur. Sort xəstəlik və zərərvericilərə qarşı davamlıdır. Sort orta yetişəndir.

Badam

Kod: 1300205 Badam bitkisinin "Leyla" sortu AMEA Genetik Ehtiyatlar İnstitutu tərəfindən seçmə üsulu ilə yaradılmışdır. Yüksək məhsuldarlığına, xəstəlik və zərərvericilərə qarşı davamlılığına, yüksək yağlılığına görə digər sortlardan fərqlənir. Ağacın budaqlanması düzdür,çətiri orta sıxdır, budaqların üzərindəki qabıq rəngi bozumtul kül rəngində, zoğlar orta, düz, meyvələri çox iri və eyni ölçüdə forması yumurtavari, kasası qədəhvari qovuşuq yarpaqlı, təpəsi iti və oturacağı dairəvidir. Qabığı yumşaqdır, üzəri nisbətən kələ-kötürdür, qabıqdan ayrılması asandır. İstehlak yetişmə dövründə rəngi açıq sarı, meyvənin hər yeri qəhvəyi, ləpəsi ağ, tərkibi nisbətən quru dad keyfiyyəti şirindir. Sort morfoloji əlamətlərinə görə "Nikitski 62" sortuna oxşardır. Quraqlığa davamlıdırlar, uzunömürlüdürlər, yaxşı boy və inkişafa, məhsuldarlığa malikdirlər.Təyinatı unuversaldır. Qənnadı, yeyinti, kosmetik, tibbdə, təzə halda çərəz kimi istifadə üçün uyğundur. Abşeron, Naxçıvan, Şabran, Xaçmaz rayonları, Gəncə-Qazax, Şirvan bölgələri üçün xarakterikdir. Sort orta tez yetişəndir.

Kod: 1300216 Badam bitkisinin "Nuray" sortu AMEA Genetik Ehtiyatlar İnstitutu tərəfindən seçmə üsulu ilə yaradılmışdır. Budaqlanması düzdür, çətiri orta sıxdır, budaqların üzərindəki qabıq rəngi bozumtuldur, zoğlar orta, düz, meyvələri iri və eyni ölçüdədir. Forması yumurtavari, ucu itidir. Oturacağı dairəvidir. Qabığın bərkliyi ortadır.Üzəri kələ-kötürdür, qabıqdan ayrılması orta asandır. Yüksək məhsuldarlığına, xəstəlik və zərərvericilərə qarşı davamlılığına, yüksək yağlılığına görə digər sortlardan fərqlənir. Meyvə qəhvəyi, ləpəsi ağ, tərkibi quru, dad keyfiyyəti ləziz və şirindir. Quraqlığa davamlıdırlar, uzunömürlüdürlər, yaxşı boy və inkişafa, məhsuldarlığa malikdirlər. Düzgün qulluq olduqda 15-20 kq qədər məhsul olur.Təyinatı unuversaldır. Abşeron, Naxçıvan, Şabran, Xaçmaz rayonları, Gəncə-Qazax, Şirvan bölgələri üçün xarakterikdir. Sort orta tez yetişəndir.

Kod: 1300427 Badam bitkisinin "Ana" sortu AMEA Genetik Ehtiyatlar İnstitutu tərəfindən "Nikitski 62" sortunun 2 kilorentgen qamma süasının təsirindən seçilmiş, üzərində seleksiya işləri aparılmaqla yaradılmışdır. Orta tezyetişən sortdur. Yüksək maəhsuldarlığına xəstəlik və zərərvericilərə davamlılığına, yüksək yağlılığına və iri qərzəkli meyvəsinə görə digər sortlardan fərqlənir. Calaq vasitəsi ilə çoxaldılır. Təyinatı unuversaldır. Düzgün qulluq olduqda 15-18 kq qədər məhsul olur. Abşeron, Naxçıvan, Şabran, Xaçmaz rayonları, Gəncə-Qazax, Şirvan bölgələri üçün xarakterikdir. Sort orta tez yetişəndir.

2023-cü ildə patent verilən bitki sortlarının qısa xarakteristikası

“Yumşaq buğda”

“Xəmsə”

“Xəmsə” yumşaq buğda sortu kompleks təsərrüfat qiymətli əlamətlərə görə seçilmiş yumşaq buğda nümunələrinin (var.erythrospermum x var.albidum) hibridləşdirilməsi nəticəsində alınmış genotipdən təkrar fərdi seçmə yolu ilə yaradılmış, 2018-cu ildən sınağa təqdim edilmişdir. Qusar, İsmayıllı və Zaqatala DSSM-də sınağı keçirilmişdir. Sarı pasa qarşı dözümlülüyü ilə seçilmişdir.

Yumşaq buğdanın “Xəmsə” sortu ortaboylu (95,0-110,0 sm), intensiv tiplidir, gövdəsi möhkəm, yatmaya yüksək davamlıdır. Kollanması yüksəkdir, həyat tərzi yarımpayızlıq, tezyetişəndir. Sünbülü düz, uzun (12,5-13,3 sm), saman rəngində-ağ, qılçıqlıdır, var.erythrospermum növmüxtəlifliyinə aiddir. Sünbüldə dənin kütləsi yüksəkdir. Dəni orta

uzunluqda, iri, rəngi qırmızıdır.

"Xəmsə" sortunun potensial məhsuldarlığı yüksəkdir (80-90 s/ha). Qarabağ ETB MSS pitomnikində "Xəmsə" sortunun məhsuldarlığı 63,0-78,5 s/ha olmuşdur. Bir sünbüldə dənlərin sayı 48,7-57,0 ədəd olmaqla üç illik orta göstəricisi 52,2 ədəd olmuşdur. 1000 dənin kütləsi 41,8-49,0 qramdır. Dəndə zülalın miqdarı 15,2-17,3%, kleykovinanın miqdarı 45,0%-ə qədər yüksəlir. Tədqiqat illərində "Xəmsə" sortu sarı, qonur və gövdə pası, unlu şeh xəstəliklərinə yüksək davamlılıq göstərmişdir.

"Xəmsə" sortu intensiv tipli, yüksək aqrofona tələbkardır. Suvarma şəraitində sələf kimi pambıq və digər cərgəarası becərilən bitkilər, nəmliklə təmin olunmuş dəmyədə qara və bitkili herik daha səmərəlidir. Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün torpağın münbitliyi nəzərə alınmaqla, təsiredici maddə hesabı ilə hektara 90-120 kq azot (səpin vaxtı və yemləmə), 80-120 kq fosfor və 50-60 kq kalium gübrələri verilməlidir. Optimal səpin müddəti oktyabrın ikinci ongünlüyüdür.

"Xəmsə" yumşaq buğda sortunun Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrdə becərilməsi tövsiyə olunur.

Yumşaq buğda

"Viləş"

Payızlıq yumşaq buğda Viləş sortu mürəkkəb hibrid olub Sorti Axatsixis Tsiteli Doli, 290612Pov.ke.pet.rul, Şarbat sonora və Dwarf sort- nümunələrinin sortlarının iştirakı ilə mürəkkəb hibrid kombinasiyasından -kombinasiya {0815/2-2 (Axatsixis Tsiteli Doli x 290612Pov.ke.pet.rul) x 01090 (Şarbat sonora x Dwarf)} müəkkəb hibrid nəsildən çoxqat fərdi seçmə yolu ilə yaradılmışdır. 2020-ci ildən sınağa verilmişdir.

Viləş sortu lütessens növmüxtəlifliyinə aid olub, sünbülü iyvari formada,ağ rəngdə, dəni tünd qırmızıdır. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub zəif mum təbəqəsi ilə örtülmüşdür. Sümbülcüklər sünbül oxunda orta sıxlıqda yerləşmişdir. Sümbülcük pulcüğu yumurtavari formada olub, kili güclü inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi dimdikvari, çiyni təpəcikli formadadır.

Sünbülü uzun (11,6-12,6 sm),orta sıxlıqla (22,4-24,2 əd.sünbülcük) səciyələnir. Bir sünbüldə dənlərin sayı 48,0-62,1 ədəd olmaqla üç illik orta göstəricisi 56,0 ədəd təşkil edir. 1000 dənin kütləsi 40,8-44,5 qramdır. Dəndə zülalın miqdarı 11,8-14,9 %, kleykovinanın miqdarı 40,0-%-ə qədər yüksələ bilir. Dənin şüşəvariliyi yüksəkdir (71,0-100,0%).

Sort orta boyludur (114,0-118,0 sm) üçillik orta 115,7 sm) və yüksək kollanma əmsalına 3,5-4,16 əd.malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, orta yetişkəndir (orta 200,7gün).

Viləş sortunun məhsuldarlığı üç illik müsabiqəli sortsınağının nəticələrinə görə orta 64,2 s/ha (62,0; 57,7; 73,0 s/ha) olmuşdur ki, bu da standart Aran sortunun eyni göstəricisindən(49,5 s/ha) 5,2 s/ha çoxdur. Potensial məhsuldarlığı 73,0 s/ha olmuşdur.

Sort tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Viləş sortunun suvarılan düzən və dağətəyi dəmyə bölgələrdə becərilməsi təklif olunur

Yumşaq buğda

"Vüsal"

Payızlıq yumşaq buğda Vüsal sortu SIMMYT-dən intrroduksiya olunmuş ET.CWANA

9th.RWKLDN-CWAC-2010.#53.BOW//NKT/7/WRM/4/
N/3*TH//K58/2*N/3MY54/N10B//AN/5/ PEL72380/ATR71/6/ KVZ/CGN//GLE 1 yuxari nəsil hibrid kombinasiyasından iki qat fərdi seçmə yolu ilə yaradılmışdır

Vüsal sortu eritrospermum növmüxtəlifliyinə aid olub, sünbülü silindrik formada, ağ rəngdə, dəni qırmızıdır. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub zəif mum təbəqəsi ilə örtülmüşdür. Sümbülcüklər sünbül oxunda orta sıxlıqda yerləşmişdir. Sümbülcük pulcüğu yumurtavari lansetvari formada olub, kili zəif inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi iti, çiyni təpəcili formadadır.

Sünbülü uzun (9,0-10,0sm),orta sıxlıqla (20,6-21,4 əd.sünbülcük) səciyələnir. Bir sünbüldə dənlərin sayı 55,4/-66,7 ədəd olmaqla üç illik orta göstəricisi 62,7 ədəd təşkil edir. 1000 dənin kütləsi 32,6-39,4 qramdır. Dəndə zülalın miqdarı 11,0-13,2%, kleykovinanın miqdarı 33,2-%-ə qədər yüksələ bilir.

Dənin şüşəvariliyi yüksəkdir (58,0-99,0%).

Sort orta boyludur (97,4-98,5 sm) üçillik orta (80,3 sm) və yüksək kollanma əmsalına 3,2-4,2 əd.malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, orta yetişkəndir (orta 211,3gün).

Vüsal sortunun məhsuldarlığı üç illik müsabiqəli sortsınağının nəticələrinə görə orta 62,1s/ha (62,5; 60,0; 63,9s/ha) olmuşdur ki, bu da standart Qırmızıgül 1 sortunun eyni göstəricisindən(58,5s/ha) 3,62 s/ha çoxdur. Potensial məhsuldarlığı 63,9 s/ha olmuşdur.

Sort tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Vüsal sortunun suvarılan düzən və dağətəyi dəmyə bölgələrdə becərilməsi təklif olunur.

Yumşaq buğda

“Romanna”

Romanna sortu yarımintensiv tipli, orta boyludur (87,5-103,0 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya yüksək davamlıdır. Cücərtiləri açıq yaşıl rəngdə, yarımyerəsərilən-həyat tərzi yarımpayızlıq, ortayetişəndir. Sünbülü sərtdir, morfobioloji əlamətlərinə görə yerli speltoid buğdalara oxşayır, sonuncu – sünbülaltı buğumarasının içərisi boşdur. Yumşaq buğdaların (Triticum aestivum L.) Asiya növaltısının (subsp.hadropyrum (Flaksb.) Tzvel.), kobud növmüxtəlifliklərı qrupunun (convar.rigidum (Vav.) A. Filat. et Dorof.), var.suberythrospermum növmüxtəlifliyinə aiddir. Sünbülü piramidal, qılçıqlı, orta uzunluqda (8,3-9,5 sm), seyrəkdir - sünbül oxunun 10 sm-də (D) 19,80-19,20 sünbülcük yerləşir. Sünbülcük pulcuqları uzunsov-oval formada, ağ rəngli, sərtdir. Damarlanması, xüsusən də əsas yan damar və kil çox yaxşı ifadə olunmuşdur. Əsasında basıqlıq zəifdir, kil dişciyi qısa (2,0-3,3 mm), düzdür, çiyni inkişaf etmiş çəpdir. Qılçıqları sünbüldən azacıq uzun (8,0-9,0 sm), dağınıq, kələ-kötür, ağ rənglidir. Sünbülü sərt olsa da döyülməsi asandır. Dəni nisbətən xırda , yumurtavari-oval, qırmızı rəngli, orta şüşəvaridir (44,0-61,0%), kəkil yaxşı inkişaf etmişdir, şırımı dayaz, ensizdir.

Romanna sortunun potensial məhsuldarlığı orta yüksəkdir –52,2-71,2 s/ha. Becərmə illərindən asılı olmayaraq sabit orta məhsuldarılğa malik, adaptiv sortlardandır. MSS pitomnikində 3 illik orta məhsuldarlığı 60,9 s/ha, standart Qırmızıgül 1 sortundan 8,4 s/ha yüksək olmuşdur. Tərtər BTS-də keçirilmiş stansiyadaxili sınaqda Romanna sortunun orta məhsuldarlığı (51,38 s/ha) payızlıq Qırmızıgül 1 yumşaq buğda sortundan 17,35 s/ha yüksək, yarımpayızlıq Əsgəran yumşaq buğda sortundan isə 7,62 s/ha aşağı olmuşdur.

Romanna sortunda 1000 dənin kütləsi 37,0-44,6 q, natura kütləsi 792,0 q, əsas sünbüldə dənlərin sayı 39,1-51,4 ədəd, əsas sünbüldə dənlərin kütləsi 1,70-2,60 qramdır. Dəndə zülalın miqdarı ortadır 12,5-13,7%, kleykovina isə 23,2-28,0% arasında olur. Çörəyin həcmi (550-650

cm3) və ümumi qiyməti (4.8 bal) yüksəkdir.

Romanna sortunun məhsuldar kollanması orta (3,0-3,2 ədəd) olduğundan, hektara 4,0-4,5 milyon toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, şaxtaya, quraqlığa, yüksək temperatura davamlılığı orta yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlıdır. Sələf kimi pambıq və digər cərgəarası becərilən bitkilər, qara və bitkili herik daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün hektara, təsiredici maddə hesabı ilə 90-120 kq azot (səpin vaxtı və yemləməsi), 80-120 kq fosfor və 50-60 kq kalium gübrələri verilməlidir. Optimal səpin müddəti oktyabrın ikinci ongünlüyündən noyabrın əvvəlinə qədərdir.

Romanna sortunun Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Yumşaq buğda

"Oğuz"

Payızlıq yumşaq buğda Oguz sortu SIMMYT-dən intrroduksiya olunmuş(kombinasiya.CWANA 11th.RWKLDN-SEKSAKA-7/3/ SHUHA 2//NS 72/HER) yuxari nəsil hibrid kombinasiyasından iki qat fərdi seçmə yolu ilə yaradılmışdır

Oguz sortu eritrospermum növmüxtəlifliyinə aid olub, sünbülü silindirik formada, ağ rəngdə, dəni açıq qırmızıdır. Kollanma fazasında forması yarımsərilmiş, yarpaqları tüksüz, zəif mum təbəqəsi ilə örtülmüş, göy rəngdə, sünbülləmə fazasında yarpaqların iriliyinə görə aralıq və eyni zamanda sünbülcük pulcuqları tüksüz, göy rəngdə olub zəif mum təbəqəsi ilə örtülmüşdür. Sümbülcüklər sünbül oxunda orta sıxlıqda yerləşmişdir. Sümbülcük pulcüğu lansetvari formada olub, kili zəif inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi iti, çiyni qalxmış formadadır.

Sünbülü uzun (10,0-11,0 sm), orta sıxlıqla (20,8-21,8 əd.sünbülcük) səciyələnir. Bir sünbüldə dənlərin sayı 55,4-67,9 ədəd olmaqla üç illik orta göstəricisi 61,3 ədəd təşkil edir. 1000 dənin kütləsi 38,0-40,0 qramdır. Dəndə zülalın miqdarı 13,0-14,6 %, kleykovinanın miqdarı 30,4-%-ə qədər yüksələ bilir.

Dəni oval formada, qayəsi tüklü, şırımı dayazdıdır. Dənin şüşəvariliyi 77,0%-ə qədər yüksələ bilir.

Sort orta boyludur (orta üçillik 105,3 sm) və yüksək kollanma əmsalına 4,0-4,2 əd.malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, orta yetişkəndir (orta 200-216 gün).

Oguz sortunun məhsuldarlığı üç illik müsabiqəli sortsınağının nəticələrinə görə orta 57,4 s/ha (55,8:- 58,5 58,0 s/ha) olmuşdur ki, bu da standart Qırmızıgül 1 sortunun eyni göstəricisindən(55,4s/ha) 3,0 s/ha çoxdur. Potensial məhsuldarlığı 58,5 s/ha olmuşdur.

Sort tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Oguz sortunun suvarılan düzən və dağətəyi dəmyə bölgələrdə becərilməsi təklif olunur.

Yumşaq buğda
"Röyal"

Payızlıq yumşaq buğda Royal sortu Özbəkstanın Sanzor-4 sortu ilə Qobustan (Az.) sortunun növdaxili hibridindən (kombinasiya Sanzor-4 (Özbəkstan) X Qobustan (Az.) seçmə yolu ilə yaradılmışdır.

Royal sortu qekum növmüxtəlifliyinə aid olub, sünbülü silindrik formada,ağ rəngdə, dəni ağ rəngdədir. Kollanma fazasında yarpaqları və sünbülcük pulcuqları tüksüz, açıq göy rəngdə olub zəif mum təbəqəsi ilə örtülmüşdür. Sümbülcüklər sünbül oxunda orta sıxlıqda yerləşmişdir. Sümbülcük pulcüğu yumurtavari, lansetvari formada olub, kili zəif inkişaf etmiş, sinirlənməsi zəif, pulcuğun dişciyi sivri, çiyni düz formadadır.

Sünbülü uzun (9-12 sm), orta sıxlıqla (20,6-23,9əd.sünbülcük) səciyələnir. Bir sünbüldə dənlərin sayı 49,5-60,0-ədəd olmaqla üçillik orta göstəricisi 56,2 ədəd təşkil edir. 1000 dənin kütləsi 38,8-40,4 qramdır. Dəndə zülalın miqdarı 10,9-12,0%, kleykovinanın miqdarı 28,4-%-ə qədər yüksələ bilir. Dənin şüşəvariliyi 22,0-48,0%.təşkil edir.

Sort orta boyludur (100,2-118,1 sm) üçillik orta 110,3 sm) və yüksək kollanma əmsalına (3,5-4,4 əd.) malikdir. Yüksək aqrofonda yatmaya davamlıdır, orta yetişkəndir (orta 211,0 gün.).

Royal sortunun məhsuldarlığı üçillik müsabiqəli sortsınağının nəticələrinə görə orta 66,5 s/ha (68,2; 65,0; 66,3s/ha) olmuşdur ki, bu da standart Qırmızıgül 1 sortunun eyni göstəricisindən(58,5 s/ha) 8,0 s/ha çoxdur. Potensial məhsuldarlığı 68,2 s/ha olmuşdur.

Royal tədqiqat illərində sarı və qonur pasa qarşı davamlılıq göstərmişdir. Royal sortunun suvarılan düzən və dağətəyi dəmyə bölgələrdə becərilməsi təklif olunur.

Yumşaq buğda
“Mübariz”

Mübariz yumşaq buğda sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Qobustan Bölgə Təcrübə Stansiyasında yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığına, boyunun hündürlüyünün orta olmasına, keyfiyyətinə və yüksək məhsuldarlığına görə fərqlənən sort hibrid (Renan (Fransa) x Qobustan (Azər.)) populyasiyasından fərdi seçmə yolu ilə yaradılmışdır. Orta boylu (82,0-102,0 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya davamlıdır. Bioloji cəhətdən yerli yumşaq buğda sortlarına oxşayır, kollanması orta (3,0-3,6), yarımyerəyatandır. Orta yetişəndir. Sonuncu sünbülaltı buğumarasının içərisi boşdur. Cücərtiləri yaşıl rəngdə olub erythrospermum növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, iyvari, orta uzunluqda (9,6-10,0 sm) və sıxlıqdadır. Sünbülcük pulcuqları uzunsov-oval formada, ağ rənglidir. Damarlanması orta ifadə olunmuşdur, tilin görünüşü güclüdür. Qılçıqları 6-7 sm, kələ-kötür, ağ rənglidir. Döyülməsi asandır. Dəni orta iri, oval, qırmızı rəngli, şüşəvariliyi 74,0-90,0 %-dir. Dəndə zülalın miqdarı 13,4-14,0%, kleykovinın miqdarı 30,8-33,0% olur. 1000 dənin kütləsi 36,7-40,2 qramdır.

Potensial məhsuldarlığı dəmyədə 41,4-54,4 s/ha.

Məhsuldar kollanması 2,9-3,0 ədəd, hektara 4,0-4,5 milyon toxum səpildikdə yüksək məhsul verir. Qışa, quraqlığa, bərk və toz sürməyə, pas xəstəliklərinə davamlıdır.

Respublikanın nəmliklə müxtəlif dərəcədə təmin olunmuş dəmyə bölgələrində qara herik və bitkili herik ən yaxşı sələfdir. Suvarma şəraitində hektara 4,0-4,5 mllyon, dəmyə şəraitində 3,5-4,0 milyon cücərən toxum səpilməsi tövsiyə olunur. Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün hektara təsiredici maddə hesabı ilə 60-80 kq fosfor, 50-60 kq kalium və 70-90 kq azot gübrələrinin verilməsi tövsiyə olunur.

Bərk buğda
“Tac 20”

Tac 20 bərk buğda sortu Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Cəlilabad Bölgə Təcrübə Stansiyasında yerli şəraitə uyğunlaşan, yatmaya və xəstəliklərə davamlılığına, boyunun hündürlüyünün orta olmasına, keyfiyyətinə və yüksək məhsuldarlığına görə fərqlənir. Sort

Türkiyə mənşəli Fadda-98 sortu ilə Azərbaycan mənşəli Qarabağ sortunun hibridindən fərdi seçmə yolu ilə yaradılmışdır [Fadda-98 (Türkiyə) x Qarabağ (Azərbaycan)].

Orta boylu (97,7 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya davamlıdır. Bioloji cəhətdən yerli bərk buğda sortlarına oxşayır, kollanması orta (2,7-3,0), yarımyerəyatan, həyat tərzi payızlıq olub orta yetişəndir. Sonuncu, sünbülaltı buğumarasının içərisi dolu olur. Cücərtiləri yaşıl rəngdədir, leucomelan növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, silindirik, orta uzunluqda (8,5 sm) və sıxlıqda olub, sünbül oxunun 10 sm-də (D) 23,0 sünbülcük yerləşir. Sünbülcük pulcuqları lansetvari formada, ağ rənglidir. Damarlanması zəif ifadə olunmuşdur, çiyni ensiz-təpəcikli, tilin görünüşü güclüdür. Qılçıqları sünbüldən 1,5 dəfə uzun, sünbülə paralel, qara rənglidir. Döyülməsi asandır. Dəni iri (51,6-53,3 q), uzunsov, ağ rəngli, şüşəvariliyi 81,0-91,0 %-dir.

Potensial məhsuldarlığı dəmyədə 44,0-50,0 s/ha. 1000 dənin kütləsi 45,8-51,2 qramdır. Dəndə zülalın miqdarı 14,1%, kleykovinin miqdarı 28,6% olur.

Məhsuldar kollanması 2,7-3,0 ədəd, hektara 4,0-4,5 milyon toxum səpildikdə yüksək məhsul verir. Qışa, quraqlığa, yüksək temperatura davamlıdır. Bərk və toz sürməyə, pas xəstəliklərinə yüksək davamlıdır.

Respublikanın dəmyə və nəmliklə təmin olunmuş dəmyə bölgələrində becərilməsi tövsiyə olunur.

Bərk buğda
"Comərd 90"

Yeni yarımpayızlıq bərk buğda sortu Comərd-90 Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında 37thİDON-MD 2013-2014 pitomnikindən seçilmiş Mgnl3/Ainzen1/3Bcr/Gro1-1//Mgnl3 sortnümunəsindən təkrar kütləvi seçmə yolu ilə yaradılmışdır.

Yeni Comərd-90 bərk buğda sortu intensiv tipli, orta boyludur (70,3-96,5 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya yüksək davamlıdır. Yarımyerəsəriləndir, həyat tərzi yarımpayızlıq, ortatezyetişəndir. Cücərtiləri açıq yaşıl rəngdə, qısa tükcüklərlə örtülü olur. Sonuncu sünbülaltı buğumarasının içərisi, adətən dolu olur, var.leucomelan növmüxtəlifliyinə aiddir. Sünbülü qılçıqlı, dikduran, prizmatik, orta uzunluqda (8,0-10,2 sm) və nisbətən sıx olur, sünbül oxunun 10 sm-də (D) 24,1 sünbülcük yerləşir. Aralıq dənizi hövzəsi ekotipinə aiddir, sünbülün üz və yan tərəfi, demək olar ki eynidir. Sünbülcük pulcuqları yumru-oval formada, ağ rənglidir. Damarlanması, xüsusən yan damar yaxşı ifadə olunmuşdur, çiyni zəif çəpdir, kil dişciyi orta uzun, dimdikvari əyilmişdir. Qılçıqları sünbüldən 1,5 dəfə uzun, sünbülə paralel, kələ kötür, qara rənglidir. Döyülməsi asandır. Dəni orta irilikdə, oval, ağ rənglidir, şüşəvarilik 72,0-95,0%-dir.

Comərd-90 sortunun potensial məhsuldarlığı ortadır (60,0-61,0 s/ha). Müsabiqəli sort sınağı pitomnikində 3 illik orta məhsuldarlığı 54,2 s/ha, standart Qarabağ sortundan 3,9 s/ha yüksək olmuşdur. Tərtər BTS-də keçirilmiş ekoloji sınaqda məhsuldarlığı (52,0 s/ha) standartdan 1,1 s/ha yüksək olmuşdur. 1000 dənin kütləsi 40,0-50,4 q, natura kütləsi 740,0 q, əsas sünbüldə dənlərin sayı 51,7-66,3 ədəd, əsas sünbüldə dənlərin kütləsi 2,21-4,19 qramdır. Dəndə zülalın miqdarı 13,7-13,9%, kleykovina isə 26,8-32,0% arasında olur.

Comərd-90 sortunun məhsuldar kollanması ortadır (3,0-3,4 ədəd), hektara 3,5-4,0 milyon toxum səpildikdə məhsuldarlığı yüksək olur. Qışa, quraqlığa davamlılığı orta, yüksək temperatura davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə davamlıdır.

Sələf kimi pambıq və digər cərgəarası becərilən bitkilər, qara və bitkili herik daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Optimal səpin müddəti oktyabrın 2-3 ongünlüyüdür.

Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi

tövsiyə olunur.

Bərk buğda
"Salvartı"

Yeni yarımpayızlıq bərk buğda sortu Salvartı Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında 37thİDON-MD 2013-2014 pitomnikindən (CM829/ Cando cross-H25/5/F4-13/3/Arthur71/Lahn//Blk2/Lahn/4/ Quarmal) təkrar fərdi seçmə yolu ilə yaradılmışdır.

Yeni Salvartı bərk buğda sortu intensiv tipli, orta boyludur (80,0-95,0 sm), samanı orta yoğunluqda və möhkəmlikdə, yatmaya yüksək davamlıdır. Cücərtiləri açıq yaşıl rəngdə, yarımyerəsərilən – həyat tərzi yarımpayızlıq, ortatezyetişəndir. Sonuncu – sünbülaltı buğumarasının içərisi, adətən parenximlə dolu olur, Sünbülü qılçıqlı, dikduran, silindrik, nisbətən qısa (7,3-7,5 sm) və sıxdır - sünbül oxunun 10,0 sm-də (D) 24,10-28,30 ədəd sünbülcük yerləşir. Sünbülcük pulcuqları yumru-oval formada, ağ rənglidir, var.leucurum növmüxtəlifliyinə aiddir. Aralıq dənizi hövzəsi ekotipinə aiddir - sünbülün üz və yan tərəfi, demək olar ki eynidir. Damarlanması, xüsusən yan damar yaxşı ifadə olunmuşdur, çiyni yaxşı inkişaf etmiş,düzdür, kil dişciyi orta uzun (1,5-2,0 mm), düzdür. Qılçıqları sünbüldən 1,5-2,0 dəfə uzun, sünbülə paralel, az kələ kötür, qara ağdır. Döyülməsi asandır. Dəni orta irilikdə, yumru, ağ rənglidir, şüşəvarilik 72,0-95,0%-dir.

Salvartı sortunun potensial məhsuldarlığı ortadır –50-61 s/ha. Müsabiqəli sort sınağı pitomnikində 3 illik orta məhsuldarlığı 56,6 s/ha, standart Qarabağ sortundan 8,7 s/ha yüksək olmuşdur. Tərtər BTS-də keçirilmiş ekoloji sınaqda məhsuldarlığı (53,4 s/ha) Zəngəzur (45,2 s/ha) bərk buğda sortundan 8,2 s/ha yüksək, Korifey-88 (54,3 s/ha) bərk buğda sortundan isə 0,9 s/ha aşağı olmuşdur. 1000 dənin kütləsi 40,4-54,2 q, natura kütləsi 783,0 q, əsas sünbüldə dənlərin sayı 48,9-69,6 ədəd, əsas sünbüldə dənlərin kütləsi 2,6-4,1 qramdır. Dəndə zülalın miqdarı 11,9-14,7%, kleykovina isə 22,8-31,6% arasında olur.

Salvartı sortunun məhsuldar kollanması ortadır (3,0-3,5 ədəd), hektara 4,0-4,5 milyon toxum səpildikdə məhsuldarlığı daha yüksək olur. Qışa, şaxtaya, quraqlığa davamlılığı orta, yüksək temperatura davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı qonur və gövdə pası xəstəliktörədicilərinə yüksək davamlıdır.

Sələf kimi pambıq və digər cərgəarası becərilən bitkilər, qara və bitkili herik daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün hektara, təsiredici maddə hesabı ilə 90-120 kq azot (səpin vaxtı və yemləmə), 80-120 kq fosfor və 50-60 kq kalium gübrələri verilməlidir. Optimal səpin müddəti oktyabrın 2-3 ongünlüyüdür. Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Tritikale
"Fidan"

Yeni payızlıq tritikale sortu Fidan Əkinçilik Elmi-Tədqiqat İnstitutunun Tərtər Bölgə Təcrübə Stansiyasında, Babək rayonu Cəhri kəndindən tapılmış, Milli Genbankda saxlanılan tritikale nümunəsindən təkrar fərdi seçmə yolu ilə yaradılmışdır.

Fidan tritikale sortu intensiv tipli, orta boyludur (120,0-142,0 sm), samanı çox yoğun və möhkəmdir, yatmaya yüksək davamlıdır. Cücərtiləri kollanma fazasında tünd yaşıl rəngdə, qalın mum təbəqəsi ilə örtülü, yerəsərilən, həyat tərzi payızlıq, ortayetişəndir. Sünbülü morfobioloji

əlamətlərinə görə ağ sünbüllü polonikum buğdasına oxşayır. Sünbülü piramidal, qılçıqlı, çox uzun (13,4-16,0 sm), çox sıxdır, sünbül oxunun 10 sm-də (D) 32,0-38,6 ədəd sünbülcük yerləşir. Sünbülcük pulcuqları uzunsov-oval formada, ağ rəngli, zərifdir. Damarlanması zəif, kil isə çox yaxşı ifadə olunmuşdur. Kil dişciyi qısa (2,5-3,5 mm), düzdür, çiyni zəif inkişaf etmiş çəpdir. Qılçıqları sünbüldən azacıq uzun (8,0-10,0 sm), zəif dağınıq, kələ-kötür, ağ rənglidir. Döyülməsi asandır, steril çiçəklər azdır. Dəni yarımuzun, qırmızı rəngli, zəif şüşəvaridir (33,0-62,0%), kəkil yaxşı inkişaf etmişdir, şırımı dayaz, ensizdir.

Fidan tritikale sortunun potensial məhsuldarlığı orta yüksək olub, 52,2-57,1 s/ha. Becərmə illərindən asılı olmayaraq sabit orta məhsuldarılğa malik, adaptiv sortlardandır. MSS pitomnikində 3 illik orta məhsuldarlığı 54,2 s/ha, standart Qırmızıgül 1 sortundan 1,7 s/ha yüksək olmuşdur. Tərtər BTS-də keçirilmiş stansiyadaxili sınaqda Fidan sortunun orta məhsuldarlığı (48,4 s/ha) payızlıq Qırmızıgül 1 yumşaq buğda sortundan 14,4 s/ha yüksək, yarımpayızlıq Əsgəran yumşaq buğda sortundan isə 10,6 s/ha aşağı olmuşdur.

Fidan sortunda 1000 dənin kütləsi 40,8-49,6 q, natura kütləsi 650,0 q, əsas sünbüldə dənlərin sayı 71,1-115,0 ədəd, əsas sünbüldə dənlərin kütləsi 3,53-5,50 qramdır. Dəndə zülalın miqdarı yüksəkdir 12,7-16,0%, kleykovina isə 18,8-24,8% arasında olur. Qışa, şaxtaya, quraqlığa, yüksək temperatura davamlılığı yüksəkdir. Bərk və toz sürmə, unlu şeh, sarı və qonur pas xəstəliklərinə yüksək davamlıdır.

Sələf kimi pambıq və digər cərgəarası becərilən bitkilər, qara və bitkili herik daha səmərəlidir. Yüksək aqrofona tələbkardır. Fidan sortunun məhsuldar kollanması orta (3,1-4,3 ədəd) olduğundan, hektara 4,0-4,5 milyon toxum səpildikdə məhsuldarlığı yüksək olur. Yüksək və keyfiyyətli dən məhsulu almaq üçün hektara, təsiredici maddə hesabı ilə 90-120 kq azot (səpin vaxtı və yemləmə), 80-120 kq fosfor və 50-60 kq kalium gübrələri verilməlidir. Optimal səpin müddəti oktyabrın ikinci ongünlüyündən noyabrın əvvəlinə qədərdir.

Fidan sortunun Azərbaycanın suvarılan düzən və nəmliklə təmin olunmuş dağətəyi bölgələrində becərilməsi tövsiyə olunur.

Adi lobya

“Yalçın”

“Yalçın” sortu AzePHA-20 nümunəsindən fərdi çox təkrarlı seçmə yolu ilə yaradılmışdır. Sortun gövdəsi determinant tipli olub, hündürlüyü 75-85 sm, 1-ci paxlanın birləşmə hündürlüyü 18,2-23,0 sm-dir. Bir çiçək tacında 2-3 ədəd çiçək olur. Dənləri iri olub 1000 dənin kütləsi 465-473 q arasında dəyişir. Toxumun rəngi qırmızı olub, açıq-qəhvəyi naxışlıdır. Paxlası yaşıl olub, bənd yeri lifsiz, perqament qatı yoxdur. “Yalçın” sortu universal tiplidir, yəni həm tərəvəz, həm də dənlik istiqamətində istifadə oluna bilər. Dəninində 25,56% zülal vardır. Məhsuldarlığı 18-20 s/h-dır. Quraqlığa və xəstəliklərə orta davamlədır.

At paxlası
“Qaraca”

“Qaraca” sortu yerli VİFA-60-la “Ruskiye çornıye” sortunun təbii çarpazlaşmasından (2007-ci ildə) alınmışdır. Bitki hündürboylu (105-110 sm), 1-ci paxlanın birləşmə hündürlüyü 18-23 sm-dir. Buğumaralarının sayı 14-16 ədəd, bitkidə paxlanın sayı 18 ədəd, paxlada dənin sayı 3-4 ədəd, bitkidə dənin sayı 32-50 ədəddir. Dənləri orta irilikdə olub tünd bənövşəyi və ya qara rənglidir, 1000 dənin kütləsi 963 q-dır. Dəndə zülal, 27,12 % təşkil edir. Quraqlığa, yatmaya və xəstəliklərə yüksək davamlıdır. Dən məhsuldarlığı 77 sen/h. çatır.

Keşniş
“Göyçə”

Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin Seleksiya şöbəsində yerli sortnümunədən seçilmiş, daha da yaxşılaşdırılaraq yeni sort kimi yaranmışdır.
Sort tezyetişən olub, texniki yetişkənlik 50-53 gündür.
Boyun uzunluğu (yoxdur, qısa, orta-uzun)-orta
Rəngi: (açıq-yaşıl, yaşıl, tünd-yaşıl) – yaşıl
Yarpaq qrupu 5-20 yarpaqlardan ibarət olur, yarpaqlar (yaşıl, parlaq, tüksüz və üç pəncəlidir).
Gövdəsi dikduran, yumru qabırğalı, tüksüz, yuxarıdan şaxələnən, hündürlüyü 50-130 sm-dir.
Kiçik çətirlərə toplanan çiçəyi xırda və ağ rəngdədir.
Meyvəsi kürəvi, ikitoxumlu, sarı-qonur rənglidir.
Sortun aqrotexnikası: toxum ilə becərmək mümkündür.
Səpinə hazırlanan toxum materialı I sinfə aid olmalı, toxumun təmizliyi 96-98%-dir.
Cücərmə %-i 86-88% olmalıdır.
Səpin müddəti ən yaxşı keyfiyyətli məhsul üçün payız (oktyabr) və erkən yaz (mart) aylarında səpin aparılmalıdır.
Səpin üsulu: cərgəarası 15-20 sm olmaqla ləklərdə dağınıq üsulda səpilir.
Sortun (hibridin) istifadəsinə görə təyinat: yarpaq qrupu və körpə zolaqları təzə halda yeyilir. Salatda və müxtəlif salatlara, şorbalara ət və balıqdan hazırlanan xörəklərə dad və ətir vermək məqsədilə istifadə olunur.
Respublikanın səbzə-tərəvəz bitkisi əkilən bütün bölgələri üçün rayonlaşdırılması təklif olunur.

Şüyüd
“Solmaz”

Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin Seleksiya şöbəsində yerli sortnümunədən seçilmiş, daha da yaxşılaşdırılaraq yeni sort kimi yaranmışdır.
Sort tezyetişən olub, texniki yetişkənlik 70-72 gündür.
Boyun uzunluğu (yoxdur, qısa, orta-uzun)-orta
Rəngi: (açıq-yaşıl, yaşıl, tünd-yaşıl) – yaşıl
Yarpaqlar 6-12 yarpaqdan ibarət olur, şaxələnəndir; çox davamlıdır.
Gövdəsi dikdurandır, şaxəlidir.
Çiçək qrupu, mürəkkəb olub, çiçəkləri xırda, yaşımtıl-sarı rəngdə olub çiçək topasında- çətirdə toplanmışdır. Meyvəsi toxumça olub 2 toxuma malikdir.
Forması uzun oval, oval və ya yumurtavari basıqdır, rəngi açıq qonurdur. Toxumların miqdarı (az, orta, çox)- orta
Sortun aqrotexnikası: toxum ilə becərmək mümkündür.
Səpinə hazırlanan toxum materialı I sinfə aid olmalı, toxumun təmizliyə 96-98%, cücərmə %-i 80-85% olmalıdır. Səpin müddəti dekabr, yanvar, fevral ayları istisna olmaqla, respublikamızın dağlıq rayonlarından başqa həm örtülü, həm də açıq sahədə səpmək olar.
Səpin üsulu: cərgəvi üsulla səpilir.
Sortun (hibridin) istifadəsinə görə təyinat şüyüdün cavan yarpaqları və gövdəsi salat və ətirverici kimi çiy halda, həmçinin çiçəklədiyi dövrdə bir ədviyyat kimi konservləşdirmədə istifadə olunur. Onu həmçinin qurudub işlətmək olur.
Respublikanın səbzə-tərəvəz bitkisi əkilən bütün bölgələri üçün rayonlaşdırılması təklif olunur.
Müəllif seleksiyaçı, böyük elmi işçi İsmayılova Solmaz və başqaları

Vəzəri
“Yerli Samux”

Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin Seleksiya şöbəsində yerli sortnümunədən seçilmiş, daha da yaxşılaşdırılaraq yeni sort kimi yaranmışdır.
Sort tezyetişən olub, texniki yetişkənlik 70-72 gündür.
Boyun uzunluğu texniki yetişkənlikdə 6-15 sm-dir.
Rəngi (açıq-yaşıl, yaşıl, tünd-yaşıl) – yaşıl
Yarpaqlar xırda, tamkənarlı, dişli, bəzən dilimli və qırışıqlı, saplaqlı və saplaqsız olur. Hər bitkinin yarpaq qrupunda onların sayı 6-10 (daha artıq) arasında dəyişir. Onlar yerə yatan formada, yarı dikəlmiş və dikinə böyüyür. Gövdənin hündürlüyü 30-35 sm olub, kök bogazından 5-10 sm yuxarıdan şaxələnir və kol formasına düşür.
Çiçək qrupu: xırda ağ, ləçəklər xaçvari yerləşir, çarpaz tozlanır.
Meyvəsi lövhəvari qındır, hər qında 2-4 ədəd toxum olur. Toxumun rəngi narıncıdır.
Toxumların miqdarı (az, orta, çox)- çox
Sortun aqrotexnikası toxum ilə becərmək mümkündür. Səpinə hazırlanan toxum materialı I sinfə aid olmalı, toxumun təmizliyi 96-98%-dir. Cücərmə %-i 88-90% olmalıdır.
Səpin müddəti ən yaxşı keyfiyyətli məhsul üçün sentyabr-aprel aylarıdır.
Səpin üsulu: səpin 50+20x4sm, 58+12x6sm və s. lentvari sxemlərdə və ləklərdə dağınıq halda, 0,5-1,5 sm dərinlikdə aparıla bilər.
Sortun (hibridin) istifadəsinə görə təyinat: vəzəri təzə halda çiy-çiy yeyilən əsas səbzə bitkisidir. Vəzərinin yarpaqları və körpə özəkləri çiy halda xörəklə yeyilir, xardal dadına oxşar xoş acı dadı vardır.
Soyuğa davamlı olub, 1-40C temperaturda cücərməyə başlayır, 15-200C-də normal inkişaf edir. onun toxumunu avqust ayından may ayına qədər səpilib əmtəəlik səbzə əldə etmək olar.
Respublikanın səbzə-tərəvəz bitkisi əkilən bütün bölgələri üçün rayonlaşdırılması təklif olunur.
Müəllif seleksiyaçı, böyük elmi işçi İsmayılova Solmaz və başqaları

Reyhan
“Ətirli”

Sort Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu Publik hüquqi şəxsin Seleksiya şöbəsində yerli sortnümunədən seçilmiş, daha da yaxşılaşdırılaraq yeni sort kimi yaranmışdır.
Sort ortatezyetişən olub, vegetasiya müddəti 106-110 gündür.
Boyun uzunluğu (yoxdur, qısa, orta-uzun)-orta
Rəngi: (bənövşəyi, şabalıdı) –bənövşəyi
Yarpağı bənövşəyi-yaşıl, ürəkvari, uc hissəsi şiş, kənarları bütövdür. Yarpağı qalındır, çılpaq və parlaqdır.
Gövdəsi dikduran, dörddüzlü, aşağıdan başlayaraq budaqlanır, budaqlanması dıxotomikdir. Eyni buğumda qarşı-qarşıya hər iki üzdən yarpaq və onların qoltuğundan zoğ çıxır.
Kolun hündürlüyü 25-40 sm, az və ya çox budaqlı olur.
Çiçəkləri ağ və bənövşəyidir, üç-üç yarpaq qoltuğunda əmələ gəlir və zoğların ucunda uzun süpürgə əmələ gətirir. Çiçəklər zəng şəkilli, ləçəkləri ikidir, həm öz-özünə, həm çarpaz tozlanır (həşaratla).
Meyvəsi 4 toxumlu qutucuqdur, asan dağılır. Toxumlar ovalvari, qara, qonur bənövşəyidir.
Sortun aqrotexnikası şitil və toxum ilə becərmək mümkündür. Səpinə hazırlanan toxum materialı I sinfə aid olmalı, toxumun təmizliyi 96-98%-dir.

Cücərmə %-i 86-88% olmalıdır.
Səpin müddəti: reyhan istiyə tələbkar bitkidir. Toxumu 8-100C-dən yuxarı temperaturda cücərməyə başlayır, aprelin 10-20-də səpilir.
Səpin üsulu: Açıq sahədə hər hektara 4-5 kq, şitillikdə isə hər m2 sahəyə 3-4 q toxum səpilir.1 m2 şitillikdən 1200-1500 ədəd şitil alınır. Hazır şitillər 2-3 cərgəli lent üsulu ilə əkilir. Lent arası 50-60 sm, cərgə araları 20-40 sm, cərgədə bitki araları 20 sm qəbul edilir. Məs. (50+20): 2x20 sm, (60+40):2x20 sm. Sortun (hibridin) istifadəsinə görə təyinatı: yarpaqları və körpə zoğları C vitamini, A provitamini, rutin, mineral duzlarla və Evqanol adlı efir yağı ilə zəngindir. Tərkibində 12% şəkər var.
Təzə halda emal sənayesində qurudulmuş halda bişmiş isti xörəklərdə, əczaçılıqda istifadə olunur. Texniki yetişkənlikdə, emal sənayesində və rarfumeriyada da istifadə olunur.
Respublikanın səbzə-tərəvəz bitkisi əkilən bütün bölgələri üçün rayonlaşdırılması təklif olunur.
Müəllif seleksiyaçı, böyük elmi işçi İsmayılova Solmaz və başqaları

Yemiş

“Günəş”

Sort Azərbaycan mənşəli Yerli Şahnisə sortunun Amerika mənşəli PMR – 45A sortu ilə hibridləşdirilməsi nəticəsində hibrid nəsillərin alınmış, qiymətləndirilmiş və ən əlverişli formaların fərdi seçmə üsulu ilə yaradılmışdır.
Sort orta tezyetişəndir. Kütləvi cücərmədən meyvələrin tam yetişməsinin başlanğıcına qədər günlərin sayı 70-75 gündür. Vegetasiya müddəti (kütləvi çıxışdan axırıncı yığıma qədər) 98 gündür.
Sort yüngül aerasiya olunan, üzvi qarışıqlarla zəngin torpaqlara, qida maddələrinə, yüksək aqrotexniki qulluğa tələbkar, işığa, günəşə, istiliyə çox həssasdır. Əsas tağın uzunluğu 235,0-245,0 sm-dir. Yarpaq ayasının uzunluğu 11,1-13,1 sm, eni 13,6-16,3 sm – dir, rəngi yaşıldır. Meyvəsi yumurtavaridir. Meyvənin uzunluğu 20,5-30,7 sm, eni 15,7-22,5 sm-dir. Əmtəəlik meyvənin çəkisi 3,9-4,6 kq-dır. Səthi hamardır, xırda torludur, rəngi tünd sarıdır. Yemişin üzərində nadir halda qəhvəyi rəngdə ştrixlər müşahidə olunur. Qabığın qalınlığı orta, lətin rəngi açıq narıncı, ləti qalın, qabıq qatlanandır.
Meyvənin keyfiyyət göstəriciləri (%): quru maddə 10,2, ümumi şəkər 9,7, vitamin C-nin miqdarı 21,5 mq%-dir. Məhsuldarlığı hər hektardan (orta) 532,8 sentnerdir
Toxumçuluq sahəsində əkilmiş bir meyvədən 42,5-50,4 qram, hektardan isə 200 - 250 kq yüksək keyfiyyətli reproduksiyalı toxum istehsal olunur.
Sort fuzarioz xəstəliyinə və mənənəyə qarşı davamlı, ekstremal şəraitdə məhsuldar olub, meyvələrin yaxşı keyfiyyəti ilə fərqlənir. Təzə halda istifadəyə yararlıdır.

Kartof

“Gədəbəy”

Tezyetişəndir. Mətbəx tipli sortdur. Yüksək dad keyfiyyətinə malikdir. 2020-ci ildə orta məhsuldarlığı 450 S olmuşdur. Bu rayonlaşmış Əmiri-600 sortunun məhsuldarlığından 195,5 sen/ha çox olmuşdur. Əmtəəlik məhsul çıxımı Əmiri-600 sortunun, əmtəəlik məhsul çıxımından 16,7% çox olmuşdur. Kolu orta böyüklükdə olub yığcam, oturandır. Orta kök sisteminə malikdir.

Stolonları ortadır. Yarpaqları orta ölçülüdür. Rəngi tutqun olub tünd yaşıl rəngdədir. Kasacıq orta ölçülü olub, qönçəsi tez açılmayandır. Çiçəyi ağ rəngdədir. Çiçək açması ortadır, qısamüddətlidir. Giləmeyvə əmələ gətirir. Tozcuğu konusvaridir. Tozcuq sütunu silindirikdir. Erk\əkcik saplağı ağ rəngdədir. Tozcuğu ortadır. Yumruları uzunsovdur, sarı rəngdədir, əmtəəlik yumruların çəkisi 80-100 q-dır. Kəsdikdə qaralmır. Quru maddə 18,3%, nitrat 128,1mq/kq, şəkər 2,1%, nişastanın miqdarı 19,7%-dir. Saxlama qabiliyyəti ortadır. Mexaniki yığıma yararlıdır. Virus və fitoflora xəstəliyinə nisbi davamlıdır. Yumrunun qabığı tozşəkillidir. Gözcükləri dayazdır. Bişirildikdə dağılan və tez bişən olub, həm isti, həm də soyuq halda dadlıdır.

Kartof

“Sarı Tala”

Tezyetişəndir. Mətbəx tiplidir. Yüksək dad keyfiyyətinə malikdir. 2020-ci ildə orta məhsuldarlığı 430s olmuşdur. Bu rayonlaşmış Əmiri-600 sortunun məhsuldarlığından 200 s/ha çox olmuşdur. Əmtəəlik məhsul çıxımı Əmiri-600 sortunun əmtəəlik çıxımından 3,2% çox olmuşdur.

Kartof

“Murovdağ”

Tezyetişəndir. Mətbəx tipli sortdur. Yüksək dad keyfiyyətinə malikdir. 2019-cu ildə orta məhsuldarlığı 380 s olmuşdur. Bu rayonlaşmış Əmiri-600 sortunun məhsuldarlığından 125 s/ha çox olmuşdur. Əmtəəlik məhsul çıxımı Əmiri-600 sortunun əmtəəlik məhsul çıxımından 1,9 % çox olmuşdur. Kolu orta böyüklükdə olub dikdurandır. Güclü kök sisteminə malikdir. Stolonları ortadır. Yarpaqları orta ölçülüdür. Tünd yaşıl rəngdədir. Tutqundur. Çiçəyi ağ rəngdədir. Çiçək açması ortadır. Uzun müddətlidir. Çiçək sağlağı orta ölçülüdür, açıq yaşıl rəngdədir. Kasacıq orta ölçülü olub, qönçəsi tez açılandır. Tüksüzdür, süpürgəsi ortadır. Xarici ləçəkləri yoxdur. Tozcuğu konusvaridir. Tozcuq sütunu silindrikdir. Erkəkcik sağlağı ağ rəngdədir. Tozcuğu ortadır. Giləmeyvə əmələ gətirir.
Yumruları uzunsovdur. Sarı rəngdədir. Əmtəəlik yumruların çəkisi 80-100 q-dır. Kəsdikdə qaralmır. Quru maddə 25, 0 %, nitrat 120 ml/kq, şəkər 5,5 %-dir. Nişastanın miqdartı 17 %-dir. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma yararlıdır. Virus və fetoftora xəstəliyinə nisbi davamlıdır. Yumrunun qabığı hamardır. Gözcükləri dayazdır. Bişirdikdə dağılan və tez bişən olub həm isti, həm də soyuq halda çox dadlıdır.

Kartof

“Slavyanka”

Tezyetişəndir. Mətbəx tipli sortdur. Yüksək dad keyfiyyətinə malikdir. 2019-cu ildə orta məhsuldarlığı 410 s olmuşdur. Bu rayonlaşmış Əmiri-600 sortunun məhsuldarlığından 180 s/ha çox olmuşdur. Əmtəəlik məhsul çıxımı orta tez yetişən Əmiri-600 sortunun əmtəəlik məhsul çıxımından 12 % çox olmuşdur. Kolu alçaq olub dikdurandır. Güclü kök sisteminə malikdir. Stolonları qısadır. Yarpaqları xırdadır. Tünd yaşıl rəngdədir. Tutqundur. Çiçək açması zəif olub

qısa müddətlidir. Çiçək saplağı qısadır. Çiçəyi ağ rəngdədir. Kasacıq orta ölçülüdür qönçəsi tez açılandır. Tozcuğu konusvaridir. Sütuncuq zəif qalxandır. Əmələ gətirməsi seyrəkdir. Yumruları yumru olub, açıq sarı rəngdədir. Əmtəəlik yumruların çəkisi 80-100 qr-dır. Kəsdikdə qaralmır. Nişastanın miqdarı 16 %, quru maddə 27,0 %, nitrat 110,0 ml/kq, şəkər 5,0 %-dir. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma davamlıdır. Virus və fetoftora xəstəliyinə nisbi davamlıdır. Yumrunun qabığının tipi hamardır, gözcükləri orta, dayazdır. Bişirdikdə dağılır, isti və soyuq halda yüksək dada malikdir.

Kartof

"Qələbə"

Tezyetişəndir. Mətbəx tiplidir. Yüksək dad keyfiyyətinə malikdir. 2020-ci ildə orta məhsuldarlığı 430s olmuşdur. Bu rayonlaşmış Əmiri-600 sortunun məhsuldarlığından 180 s/ha çox olmuşdur. Əmtəəlik məhsul çıxımı Əmiri-600 sortunun əmtəəlik məhsul çıxımından 8,0% çox olmuşdur. Kolu orta hündürlükdə olub dağılandır. Güclü kök sisteminə malikdir. Stolonları ortadır. Yarpaqları orta ölçülüdür. Tünd yaşıl rəngdədir. Tutqundur. Çiçəyi açıq-bənövşəyidir. Çiçək açması ortadır. Qısamüddətlidir. Çiçək saplağı orta ölçülüdür. Açıq yaşıl rəngdədir. Kasacığı uzun ölçülü olub, qönçəsi tez açılandır. Tüklüdür. Süpürgəsi uzundur. Xarici ləçəkləri vardır. Toxcuğu azdır. Giləmeyvə əmələ gətirməsi seyrəkdir. Yumruları uzunsov uc hissə sivri olub, tünd qırmızı rəngdədir, əmtəəlik yumruların çəkisi 95-110 qramdır. Kəsdikdə qaralmır. Quru maddə 17,5%, nitrat 160,5 mq/kq, şəkər 2,4%, nişastanın miqdarı 26,2%-dir. Saxlanma qabiliyyəti ortadır. Mexaniki yığıma yararlıdır. Virus və fitoflora xəstəliyinə nisbi davamlıdır. Ekstraktiv maddə 3,0%-dir. Yumrunun qabığı hamardır. Gözcükləri orta, dərindir. Bişirildikdə dağılmır və orta bişən olub, həm isti, həm də soyuq halda dadlıdır.

Arı cinsi

"Fəxralı" F1

Hibrid erkək fərd olaraq Boz Dağ Qafqaz arısı, dişi fərd olaraq Karnika cins arısı götürülərək süni mayalanma üsulu ilə mayalanmadan alınmış fərd-dir (Boz Dağ Qafqaz x Karnika). Hibridin bədən rəngi boz-qara, üstündə 3 ədəd gümüşü rəngdə zolaqlar və ya zolaqsız olmaqla, çəkisi 160-220 mqr olmuşdur. Hibridin gündəlik yumurta qoyması 1500-2000 ədəd olmuşdur. Ailədə erkək arının bədən rəngi boz-qara olmaqla zolaqsızdır, çəkisi 180-200 mqr olmuşdur. Ailədə bir ədəd işçi arının rəngi boz-qara, çəkisi 100-115 mqr olmuşdur, bədənində qısa və sıx tük örtüyü vardır. Ailənin erkən yazda inkişafı yüksəkdir. Sərin və az yağışlı, küləkli hava-iqlim şəraitində kütləvi uçuşlar edir. Pətək təmiz saxlanılır. Ailədə aqressivlik aşağıdır. Ailədən süzülən balın miqdarı orta hesabla 12-15 kq olmuşdur. Çiçək tozu məhsuldarlığı ailəyə görə orta hesabla 0,2-0,4 kq olmuşdur. Hər ailədən 50-80 qr arı südü əldə edilmişdir.

2025-ci ildə patent verilən
bitki sortlarının qısa xarakteristikası

Pambıq

“Ağdaş gövhəri”

AMEA Genetik Ehtiyatlar İnstitutunda yaradılmışdır. Sortun seleksiyasına 2014-cü ildə başlanılmış, AMEA Dünya kolleksiyası nümunələrinin arasından seçilmiş valideyn formalarının hibridləşdirilməsi və seleksiya üsulu ilə həyata keçirilmişdir. Əsas genetik material olaraq "Aşqabad" və "AP-317" sortlarından istifadə edilmişdir. Sortun yaradılmasında əsas məqsəd lif çıxımını və lif keyfiyyətini artırmaqdır. Bitki forması kompakt piramidadır. Hündürlüyü 70–110 sm, monopodial budaqların sayı 0–1, gövdə yaşıl rəngli, yığcam, güclü, antosian boyanması yoxdur. Simpodial budaqların tipi I–II, yaşılımtıl rəngli, birinci simpodial budağın qoyulma hündürlüyü 6–8 sm-dir. Yarpaqlar orta böyüklükdə, 3–5 bölümlü, yaşıl rəngli, hirsutum tipli, yumurtavari formalıdır. Ayacığın parçalanma dərəcəsi zəifdir. Çiçəklər orta böyüklükdə, ləçəkləri açıq sarı, laçıncıq açıq sarı, ləkəsizdir. Çiçək altlığı kiçik, dilimli, dişciklər 1–5 ədəd, rəngi açıq yaşıl, layının örtülmə dərəcəsi orta, ucu kütdür. Qozalar orta böyüklükdə, oval-yumurtavari formalıdır. Toxum orta böyüklükdə, tükcüklü, tükcüklərin rəngi ağ, lif ağ rəngli, lifin hissə-hissə bağlanması sabitdir. Lif çıxımı və keyfiyyət göstəriciləri yüksəkdir. Kompakt bitki forması sayəsində becərilməsi rahatdır.

Pambıq

"Gəncə-294"

“Ağ qızıl x 3038” hibrid kombinasiyasından təkrar seçmə yolu ilə alınmışdır. Kolu piramidal formalı, I – II budaqlanmaya aiddir. Yarpağı 3-5 dilimli, tünd yaşıl rənglidir. Qozası orta böyüklükdə, yumurtavari formalı, səthi hamar, 4-5 dilimlidir. Məhsulu tökülmür. Gövdəsi yatmağa davamlıdır. "Gəncə-294" pambıq sortunun məhsuldarlığı 46,4 sen/ha, vegetasiya müddəti 120 gündür. Qozasının kütləsi 5,9 qram, lif çıxımı 40,5%, lifin uzunluğu 34,5 mm-dir. 1000 ədəd toxumun kütləsi 118 qramdır. Respublikanın bütün pambıqçılıq bölgələrində əkilib becərilə bilər.

Pambıq

"Gəncə-226"

“Kokers-100 x AzNİXİ-1933“ hibrid kombinasiyasından təkrar seçmə nəticəsində alınmışdır. Gəncə-226 pambıq sortu nisbətən yüksək lif keyfiyyətinə və viltə davamlılığına görə seçilir. Kolun hündürlüyü 100 sm, monopodial budaqların miqdarı 1-2 ədəd olur. 1-ci simpodial budaqların qoyulma hündürlüyü 4-5 sm-dədir. Yarpağı orta irilikdə, əsasən 3 dilimlidir. Qozası orta böyüklükdə, forması uzunsov iti uclu, məhsulun lifi tökülmür. Məhsuldarlığı 41,0 sen/ha, lif çıxımı 40,2%, lif məhsulu 16,1 sen/ha-dır. Tezyetişən sortdur. Vegetasiya müddəti 119 gündür. Qozanın kütləsi 6,1 qramdır. 1000 ədəd toxumun kütləsi 110 qramdır. Nisbətən vilt xəstəliyinə davamlıdır. Gəncə-226 pambıq sortu Mil-Muğan pambıqçılıq bölgəsi üçün daha əlverişlidir.

Pambıq

"Gəncə-274"

“660/1 x Tolya” hibrid kombinasiyasından təkrar seçmə yolu ilə alınmışdır. Sort yüksək məhsuldarlıq potensialına və lif çıxımına görə digər sortlardan seçilir. Kolun forması yığcam, gövdəsi tünd yaşıl, tüksüz, yatmağa davamlıdır. I tip budaqlanmaya malikdir. Yarpağı orta irilikdə, 3 dilimlidir. Qozası oval formalı, 4 dilimli, ucu kütdür. Toxumu orta irilikdə, uzunsov, ovaldır. Məhsuldarlığı 45,2 sen/ha, lif çıxımı 40,0%, mahlıc məhsulu 18,0 sen/ha, lifin uzunluğu 35,6 mm-dir. Vegetasiya müddəti 119 gündür. Qozanın kütləsi 5,7 qram, 1000 ədəd toxumun kütləsi 116 qramdır, viltə sirayətlənmə dərəcəsi 5,8 %-dir. Gəncə-274 pambıq sortu yığcam, simpodial tipli, tezyetişən sortlar qrupuna aiddir. Maşınla yığılması üçün əlverişli sayılır.

Pambıq

"Gəncə-205"

“S-133 x Empair Siriya-67” sort nümunələrinin hibridləşməsindən alınan hibrid formalarının nəsillər üzrə istiqamətli seçmə yolu ilə yaradılmışdır. Kolun hündürlüyü 110-120 sm, piramidal formalıdır. Simpodial budaq əsasən 5-6-cı buğumlarda qoyulur. Yarpaqları orta, 3-5 dilimlidir. Qozasının forması yumurtavari, solğun yaşıl, hamar, məhsulu tökülümür. Potensial məhsuldarlığı 45-50 sen/ha-dır. Lif çıxımı 39,9 %, vegetasiya müddəti 112 gündür. Qozanın kütləsi 5,5 qram, 1000 ədəd toxumun kütləsi 103 qramdır. Gəncə-205 sortunun məhsulunun maşınla yığılması üçün morfoloji xüsusiyyətləri əlverişlidir. Gəncə-205 pambıq sortu yüksək və optimal becərmə rejimində öz potensial imkanını daha yaxşı göstərir.

Pambıq

"Gəncə-219"

"Gəncə-219" sortu “Liniya-24 x 3273” hibrid kombinasiyasından təkrar seçmə yolu ilə alınmışdır. Sort tezyetişən, məhsuldarlığı yüksək, lifinin keyfiyyəti orta lifli sortlara məxsus IV tipin parametrinə cavab verən sortdur. Kol yığcam formalı, 1 ədəd monopodial budaq vardır. Gövdəsi açıq yaşıl, tüksüz, möhkəmdir, yatmır. I - II tip budaqlanmaya aiddir. Yarpaqları 3-5 dilimli, orta ayanın forması lansetvaridir. Qozası yumurtavari, hamar, açıq yağıl rənglidir. 4-5 dilimlidir. Potensial məhsuldarlığı 45-50 sen/ha, lif çıxımı 40,0 %, lifin uzunluğu 35 mm, vegetasiya müddəti 118 gündür. Qozanın kütləsi 5,8 qram, 1000 ədəd toxumun kütləsi 122 qramdır. Gəncə - 219 pambıq sortu yüksək fosfor, azot və kalium gübrə fonunda və suvarma rejimində becərilməlidir.

Pambıq

"Gəncə-244"

“3038 x Foster” sort nümunələrinin hibridləşməsindən alınan hibrid formalardan nəsillər üzrə seçmə yolu ilə yaradılmışdır. Sort yüksək məhsuldarlıq potensialı, vilt xəstəliyinə davamlı və yüksək lif çıxımı ilə səciyyələnir. Kolun forması piramidal, monopodial budaqların miqdarı 1-2 ədəd olur. Birinci simpodial budaq əsasən 5-6-cı buğumlarda qoyulur. Yarpaq orta böyüklükdə, 3 dilimli, açıq yaşıl rənglidir. Qozası orta böyüklükdə, forması yumurtavaridir. Solğun yaşıl rənglidir. Məhsulu tökülmür. Qozanın kütləsi 6,0 qramdır. Məhsuldarlığı 44,0

sen/ha, lif çıxımı 40,2 %, lifin uzunluğu 35 mm-dir. 1000 ədəd toxumun kütləsi 117 qramdır. Vegetasiya müddəti 120 gündür. Gəncə-244 pambıq sortu respublikanın bütün pambıqçılıq bölgələrində əkilib becərilə bilər.

Pomidor

"Damla"

"Damla" sortunun kolu indeterminant (sp+), adi və orta dərəcədə yarpaqlanandır. Yarpağı adi tipli, iri (25-35 sm) yaşıl, ayası orta qırışıqlıdır. Bitki üzərində ilk çiçək salxımı 8-9 yarpaqdan, sonrakı yarpaqlar 3 yarpaqdan bir növbələşir. Salxımları I-II (sadə və aralıq) tipə aid olub, onlarda çiçəklərin orta sayı 25-30 ədəd, meyvəbağlama qabiliyyəti 90-95%-dir. Meyvələri yumru formalı (indeks 0,9-1,0), səthi hamar, ləkəsiz, intensiv qırmızı rənglidir. Bir meyvənin kütləsi 12-15 qr-dır. Toxum yuvası düzgün və 2 ədəddir. Meyvədə toxumun sayı 120-140 (X) ədəd, 1000 ədəd toxumun çəkisi 2,87 qr-dır. Meyvənin tərkibində quru maddə 9,4%, şəkər 6,1%, C vitamini 28 mq, ümumi turşuluq 0,39%-dir. Məhsuldarlığı 9-10 kq/m². Əsas xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"AzTU-2020"

"AzTU-2020" sortunun kolu indeterminant (sp+), adi tipli, tünd yaşıl və orta yarpaqlanandır. Yarpaqları adi, orta irilikdə, üzəri az qırışıqlıdır. Bitki üzərində ilk salxımlar 8 yarpaqdan, sonrakı salxımlar 2-3 yarpaqdan bir növbələşir. Çiçək salxımı sadə (I tip), orta uzunluqda (14-16 sm), orada əmələ gələn meyvələrin sayı 5-7 ədəd, çiçəklərin meyvəbağlama qabiliyyəti 75-78% olur. Meyvələri yumru, hamar, ləkəsiz, intensiv qırmızı və bif meyvə qrupuna daxildir. Meyvənin kütləsi 150-210 qr, daxili və xarici bazarın tələbinə uyğun gəlir. Meyvənin toxum yuvası 4-5 ədəd və düzgün quruluşludur. 1000 ədəd toxumun çəkisi 4,04 qramdır. Meyvədə quru maddə 4,8%, şəkər 2,7%, C vitamini 33 mq, ümumi turşuluq 0,46%-dir. Məhsulu 25-30 kq/m². Xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"Zəngəzur"

"Zəngəzur" sortunun kolu indeterminant (sp+), orta yarpaqlanan və yaşıldır. Yarpaqları adi, nisbətən iri (25,0-30,0 sm) olub səthi orta qırışıqlıdır. Becərmə dövründən asılı olaraq bitkinin boyu 2,5-3,5 metrə çatır. Bitki üzərində ilk çiçək salxımları 9 yarpaqdan, növbəti salxımlar əsasən 3 yarpaqdan sonra növbələşir. Çiçək salxımı sadə (I tip), onda əmələgələn meyvə sayı 5-6 ədəd, meyvəbağlama qabiliyyəti 75-80%-dir. Meyvələri yumru, çəhrayı rəngli və pink meyvə qrupuna aid olub yaxşı dada və görünüşə malikdir. Bir meyvənin kütləsi 215-300 qr, toxum yuvasının sayı 5-6 ədəd, quruluşu düzgün bəzən qarışıq formada olur. Meyvədə toxumların orta sayı 133-145 (X) ədəd, 1000 ədəd toxumun çəkisi 3,19 qramdır. Meyvənin tərkibində quru maddənin miqdarı 5,7%, şəkər 4,0%, C vitamini 27,2 mq, ümumi turşuluq 0,33%

həddindədir. Dadı və xarici görünüşü xoşagələndir. Dequstasiya balı 4,6-5,0-dir. Əsas xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"Xəmsə"

"Xəmsə" sortunun kolu indeterminant (sp+), adi və orta dərəcədə yarpaqlanandır. Yarpağı adi tipli, iri (25-35 sm) yaşıl, ayası orta qırışıqlıdır. Bitki üzərində ilk çiçək salxımı 8-9 yarpaqdan, sonrakı yarpaqlar 3 yarpaqdan bir növbələşir. Salxımları I-II (sadə və aralıq) tipə aid olub, onlarda çiçəklərin orta sayı 25-30 ədəd, meyvəbağlama qabiliyyəti 90-95%-dir. Meyvələri yumru formalı (indeks 0,9-1,0), səthi hamar, ləkəsiz, intensiv qırmızı rənglidir. Bir meyvənin kütləsi 12-15 qr-dır. Toxum yuvası düzgün və 2 ədəddir. Meyvədə toxumun sayı 120-140 (X) ədəd, 1000 ədəd toxumun çəkisi 2,87 qr-dır.Meyvənin tərkibində quru maddə 9,4%, şəkər 6,1%, C vitamini 28 mq, ümumi turşuluq 0,39%-dir. Məhsuldarlığı 9-10 kq/m². Əsas xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"Göyçə"

"Göyçə" sortunun kolu indeterminant (sp+), adi tipli olub, rəngi tünd yaşıldır və nisbətən güclü yarpaqlanandır. Yarpaqları iri, az dilimli, adi və səthi qırışıqsızdır. Bitki üzərində ilk çiçək salxımları 8-9 yarpaqdan sonra əmələ gəlir, sonrakı çiçəklər 3 yarpaqdan bir növbələşir. Çiçək salxımları I tipə aid olub, orada əmələ gələn meyvələrin (X) orta sayı 5-6 ədəd, meyvəbağlama qabiliyyəti 75-80%-dir. Bir meyvənin kütləsi 240-300 qr (X) və daha iri olur. Bu bif meyvə qrupuna aid olan genotipin meyvələri yastı-yumru olub, yaxşı dada və xoşagələn görünüşə malikdir. Meyvələrin rəngi qırmızı, hamar və ləkəsizdir. Meyvədə toxum yuvalarının sayı 4-5 ədəd, quruluşu düzgündür. Meyvədə toxumların sayı 220-240 ədəd arasındadır. 1000 ədəd toxumun çəkisi 3,64 qr-dır.Meyvənin tərkibində quru maddə 4,8%, şəkər 2,4%, C vitamini 33 mq, ümumi turşuluq 0,50%-dir. Məhsulu müasir tipli istixanalarda 27-32 kq və daha çox olur. 9-10 kq/m². Xəstəliyə davamlı nümunədir.

Pomidor

"Xəyal"

"Xəyal" sortunun kolu indeterminant (sp+), orta yarpaqlanan, az bic əmələ gətirmə xüsusiyyətinə malikdir. Yarpağı adi tipli, nisbətən iri, səthi orta qırışıqlı, yaşıl rənglidir. Bitki üzərində salxımlar 8-9 yarpaqdan, sonrakı yarpaqlar isə 3 yarpaqdan bir növbələşir. Salxımları I-II (sadə və aralıq), uzunluğu 12-15 sm, çiçəklərin sayı 5-7 ədəd, meyvəbağlama qabiliyyəti 70-76%-dir. Meyvələri bif tipli, yumru formalı (indeks 0,9), hamar, ləkəsiz və intensiv qırmızı rənglidir. Kütləsi 140-170 qr, meyvədə toxum yuvalarının sayı 4-5 ədəddir, quruluşu düzgündür. Meyvədə toxumların orta sayı 120-136 ədəddir. 1000 ədəd toxumun çəkisi 3,22 qr-dır. Meyvənin tərkibində quru maddənin miqdarı 4,6%, şəkər 3,3%, C vitamini 19,5 mq, ümumi turşuluq 0,31%-dir. Məhsuldarlığı 24-25 kq/m². Əsas xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"Qaragilə"

"Qaragilə" sortu Missuru (Cənubi Amerika) mənşəli "Black Vernissage" sortundan çoxdəfəli seçmə yolu ilə əldə edilmişdir. Kolu adi, nisbətən yarım determinant, tünd yaşıl rəngli və az yarpaqlanandır. Yarpaqlar nisbətən xırda, qırışlı və qalındır. Bitki üzərində ilk çiçək salxımları 7-8 yarpaqdan sonra əmələ gəlir, sonrakı yarpaqlar 2-3 yarpaqdan bir növbələşir. Çiçək salxımları (I-II-III) tipə aid olub, sadə, aralıq və mürəkkəb olmaqla uzunluğu 10-25 sm, orada əmələ gələn meyvələrin sayı 8-18 ədəd, çiçəklərin meyvəbağlaması 75-80% təşkil edir. Meyvələri kokteyl qrupuna aid, yumru, hamar, qara zolaqları olan tünd qəhvəyi rənglidir. Meyvənin kütləsi 25-32 qr, çox xoşagələn dadı və görünüşü var. Qəlyanaltı və salatların hazırlanmasında əvəzolunmaz əhəmiyyətə malikdir. Toxum yuvası düzgün və əsasən 2 kameralıdır. 1000 ədəd toxumun çəkisi 3,0 qramdır. Meyvədə quru maddə 8,4%, şəkər 5,6%, C vitamini 23,5 mq, ümumi turşuluq 0,40%. Məhsuldarlığı 12-15 kq/m² . Xəstəliklərə qarşı nisbi davamlılığa malikdir.

Pomidor

"Nübar"

"Nübar" sortu rayonlaşmış "Şələlə" sortu ilə 140 saylı saf xəttin çarpazlaşmasından alınmış sortdur. Kolu adi, indeterminant (sp+) və orta yarpaqlanandır. Bitkilərin hündürlüyü 2,5-3 metrə çatır. Yarpağı adi tipli, nisbətən iri (25-35 sm), açıq yaşıl rəngli, ayası orta dərəcədə qırışıqlıdır. Bitki üzərində ilk çiçək salxımları 8-9 yarpaqdan sonra əmələ gəlir, sonrakı salxımlar isə 3 yarpaqdan sonra növbələşir. Salxımları I-II tipə aid olub, onlarda çiçək sayı 8-12 ədəddir. Çiçəklərin meyvəbağlama qabiliyyəti 76-81% -dir. Meyvələri yumru formalı (0,9-1,0) səthi hamar, qırmızı rəngli və ləkəsizdir. Bir meyvənin orta kütləsi 96-110 qramdır. Salxım meyvə qrupuna aiddir. Toxum yuvalarının sayı 3-4 ədəd olub, onlar düzgün quruluşludur. Meyvələrdə toxumların orta sayı 90-132 ədəd, 1000 ədəd toxumun çəkisi isə 3,45 qramdır. Meyvənin tərkibində quru maddə 5,1%, şəkər 2,6%, C vitamini 27,4 mq, ümumi turşuluq 0,31% həddindədir. Məhsuldarlığı 22,5-25,5 kq/m². Daxili və xarici bazarın tələblərinə cavab verir. Dad keyfiyyəti yaxşı, xoşagələn görünüşü var. Əsas xəstəliklərə davamlıdır.

Pomidor

"Yeganə"

"Yeganə" sortu Kanada mənşəli "First Ladu" genotipindən uzun müddətli seçim yolu ilə alınmışdır. Kolu indeterminant (sp+) tipli, tünd yaşıl rəngli, az budaqlanandır. Yarpaqları orta irilikdə, adi tipdə, səthi orta qırışıqlıdır. Bitki üzərində ilk çiçək salxımları 8–9 yarpaqdan sonra əmələ gəlir, sonrakı salxımlar 3 yarpaqdan bir formalaşır. Çiçək salxımı I–II tipə aid olub onda əmələ gələn meyvələrin sayı 6–10 ədəd, meyvə bağlama qabiliyyəti 85–90%-dir. 2018–2021-ci illərdə aparılan tədqiqat illərində temperaturun gecə saatlarında (10°C) aşağı düşməsinə baxmayaraq 250-dən çox sort arasında bu sortun meyvəbağlama qabiliyyəti çox yüksək olmuşdur. Bu genotipin meyvələri yumru, rəngi al qırmızı, salxım meyvə qrupuna aid olub saxlanmaya və daşınmaya yararlıdır. Nümunə daxili və xarici bazarın tələblərinə tam cavab verir. Bir meyvənin kütləsi 90–100 qr, toxum yuvası düzgün, sayı 3–4 ədəddir. Meyvədə toxumun orta sayı 110–120 ədəd, 1000 ədəd toxumun çəkisi 3,84 qramdır. Meyvənin tərkibində quru maddənin miqdarı 5,1%, şəkər 2,5%, C vitamini isə 0,29 mq, ümumi turşuluq 0,36%-dir. Dadı və xarici

görünüşü xoşagələndir. Dequstasiya balı 4,6–5,0-dir. Məhsuldarlığı yüksək, əsas xəstəliklərə qarşı tolerant davamlılığa malikdir.

Pomidor

"Sarıbaş"

"Sarıbaş" sortunun kolu adi, indeterminant (sp+), açıq yaşıl rəngli və nisbətən güclü yarpaqlanandır. Kolun hündürlüyü 2,5–3,5 m-ə çatır. Yarpaqları adi, sığallı və zərifdir. Bitki üzərində ilk çiçək salxımı 8 yarpaqdan, sonrakı yarpaqlar 3 yarpaqdan bir növbələşir. Salxımları I–II tipə aid olub, onlarda çiçəklərin orta sayı 12–23 ədəd, uzunluğu 25–35 sm, meyvəbağlama qabiliyyəti 90–92%-dir. Meyvələri yumru, hamar, sarı və ləkəsizdir, kütləsi 12–15 qramdır. Toxum yuvasının quruluşu düzgün və 2 kameralıdır. 1000 ədəd toxumun çəkisi 3,72 qramdır. Meyvənin tərkibində quru maddə 7,8%, şəkər 5,6%, C vitamini 25,0 mq, ümumi turşuluq 0,28%. Məhsuldarlığı 9–12 kq/m². Xəstəliklərə qarşı nisbi davamlılığa malikdir. İtkisiz istehlakın tələblərini tamamilə ödəyir. Çeri meyvə qrupuna aid olan bu sort salat və qəlyanaltıların hazırlanmasında əvəzolunmaz xüsusiyyətə malikdir. Müasir bazarın tələblərini ödəyir.

Xiyar

"Favorit"

"Favorit" sortu xarici mənşəli "Dilək F1" sortunun 3-cü nəslindən ginoetsiy çiçək tipinə məxsus fərddən ayrılmış sonradan 3-4 qat insuksasiya (məcburi tozlanma) ($İ_4$) yolu ilə alınmış təmiz xətli tezyetişən sortdur. Müasir tipli istixanalarda becərmək üçün əlverişli süfrə sortdur. Bitkilər indeterminant tiplidir. Təkgövdəli forma verməklə becərilir. Gövdənin buğumlarında yarpaq, bığcıq, yan zoğlar və əsasən də dişi tipli çiçəklər vardır. Gövdənin aşağı yarusunda (30-35 sm) olan yan zoğlar 2-3 yarpaq saxlamaqla budanır, sonradan isə təkgövdəli forma verilir. Yarpağı 5 pəncəli, oval formalı və iri saplaqlı olub, alt səthi tükcüklərlə örtülüdür, düzülüşü növbəlidir. Yarpaqların düzülüşü bitkilərin çiçək tipindən asılı olaraq 17-34,5 sm, eni 20-33,5 sm həddində dəyişir. Ayanın rəngi yaşıl, səthi hamardır. Genotipin çiçəkləri əsasən dişi tiplidir, bitki üzərində qismən erkək çiçəklər də əmələ gəlir. Dişi çiçəklər əsasən aşağı yumurtalıqlıdır. Dişi tipli çiçəklərin öz bitkilərinə məxsus erkək çiçəklərlə süni tozlanma aparıldıqda sortun məhsuldarlığı və toxum əmələgətirmə qabiliyyəti artır. Yumurtalıq silindrik formalıdır. Meyvələri texniki yetişkənlik fazasında uzun silindrik formalı, tünd yaşıl rənglidir, çox az qabarıqlıdır, əsasən hamar və gözəl görünüşə malikdir. Onların uzunluğu 15-17 sm, diametri 4-5 sm-dir. Toxumluq meyvələrin uzunluğu 21-27, eni isə 7-8 sm olur. Tər xiyar çəkisi 220-250 qr, toxumluq meyvənin çəkisi 550-580 qr olur. Meyvənin biokimyəvi göstəriciləri quru maddə 3,8%, şəkər 1,93%, ekstrativ maddələr 3,19%-dir. Dequstasiya balı 4,5-5,0-dır. Xəstəliyə davamlıdır.

Xiyar

"Ozan"

"Ozan" sortu indeterminant tipli, təkgövdəli forma verməklə becərilir. Gövdənin buğumlarında yarpaq, bığcıq, yan zoğlar və əsasən də dişi çiçəklər vardır. Gövdənin aşağı

yarusunda (30-35 sm) olan yan zoğlar 2-3 yarpaq saxlamaqla budanır, sonradan isə təkgövdəli forma verilir. Yarpağı 5 pəncəli, oval formalı və iri saplaqlı olub, alt səthi tükcüklərlə örtülüdür, düzülüşü növbəlidir. Yarpaqların düzülüşü bitkilərin çiçək tipindən asılı olaraq 18,0-34,0 sm, eni 22-35,6 sm həddində dəyişir. Ayanın rəngi yaşıl, səthi hamardır. Genotipin çiçəkləri əsasən dişi tiplidir, bitkinin aşağı hissəsində qismən erkək çiçəklər də əmələ gəlir. Dişi çiçəklər əsasən aşağı yumurtalıqlıdır. Dişi tipli çiçəklərin öz bitkilərinə məxsus erkək çiçəklərlə mayalandırıldıqda (süni) sortun məhsuldarlığı artır. Əks halda bitkilər üzərində əmələ gələn partenokarpik meyvələrin sayı artır. Yumurtalıq silindrik formalıdır. Meyvələri texniki yetişkənlik fazasında silindrik formalı, yaşıl və nisbətən tünd yaşıl rənglidir. Səthi hamar, çox zəif tüklü və meyvənin təpə hissəsində əyimsov radikal xətlər müşahidə olunur. Onların uzunluğu 15-17 sm, diametri 4,3-4,7 sm, orta kütləsi 170-200 qramdır. Toxumluq meyvələrin uzunluğu 21-28 sm, diametri 7-8 sm, kütləsi isə 700-850 qramdır. Meyvənin dequstasiya balı 4,5-5,0 həddindədir. Biokimyəvi göstəriciləri: quru maddə 5,1 %, şəkər 2,6 %, ekstraktiv maddələr 3,58 %-dir. Fuzarioz xəstəliyinə davamlıdır. 1000 ədəd toxumun çəkisi 36,4 qramdır.

Xiyar

"Dadlı"

"Dadlı" sortu "Pıtrak F1" hibridi ilə 26 saylı saf xəttin hibridləşməsindən və 4 qat insuksasiya (məcburi tozlanma) yolu ilə əldə edilmişdir. Bitkilər indeterminant, çoxyarpaqlanan genotipdir. Təkgövdəli forma verməklə becərilir. Gövdənin buğumlarında yarpaq bığcıq, yan zoğlar və əsasən də dişi tipli çiçəklər vardır. Gövdənin aşağı yarusunda (30–35 sm) olan yan zoğlar 2–3 yarpaq saxlamaqla budanır, sonradan isə bitkilərə təkgövdəli forma verilir. Yarpağı 5 pəncəli, oval formalı və iri olub, alt səthi tükcüklərlə örtülüdür, düzülüşü növbəlidir. Yarpaqların düzülüşü bitkilərin çiçək tipindən asılı olaraq 18–33,5 sm, eni 20,5–35,2 sm həddində dəyişir. Ayanın rəngi tünd yaşıl, səthi hamardır. Sortun çiçəkləri əsasən dişi tiplidir, bitkilərin aşağı hissəsində qismən erkək çiçəklər əmələ gəlir. Dişi çiçəklər aşağı yumurtalıqlıdır. Dişi tipli çiçəklərin öz bitkilərinə məxsus erkək çiçəklərlə süni tozlanma aparıldıqda sortun məhsuldarlığı artır. Əks halda bitkilər üzərində əmələ gələn partenokarpik meyvələrin sayı artır. Yumurtalıq silindrik formalıdır. Meyvələri texniki yetişkənlik fazasında silindrik formalı, tünd yaşıl rənglidir. Səthi hamar çox az qırışıqlıdır. Onların uzunluğu 15–18 sm, diametri 3,8–4,7 sm, orta kütləsi 165–180 qr həddindədir. Toxumluq meyvələrinin uzunluğu 29–30 sm, diametri 7–8 sm, orta kütləsi 740–750 qramdır. Biokimyəvi tərkibi quru maddə 4,4 %, şəkər 1,6 %, ekstraktiv maddələr 3,2 %-dir. Dequstasiya balı 4,5–5,0-dir. Xəstəliklərə tolerant davamlılığa malikdir.

Bibər (şirin)

"Buket"

"Buket" sortu xarici mənşəli Tayut F1 hibridindən çoxdəfəli seçmə yolu ilə əldə edilmişdir. Sortun bitkisi yığcam formalı, orta boylu və az şaxələnəndir. Kolun orta hündürlüyü 60-65 sm-dir. Yarpaqlanma dərəcəsi orta səviyyəlidir. Gövdənin diametri 1,7-2,4 sm, rəngi açıq yaşıl, nisbətən küncludur. Gövdə üzərində 6-10 yarpaqdan sonra budaqlar formalaşır. Yarpaq ayası yumurtavari formalı, uzunluğu 11-15 sm, eni 5-7 sm, rəngi yaşıldır, kənarı tamdır. Buğumarası məsafə 5-8 sm-dir. Çiçəkləri iridir (diametri 2,3-3,1) ağmsov rənglidir. Ləçək və erkəkciklərin sayı 6-7-dir. Tozcuq kisələrinin rəngi maviyə çalır. Kasacığın forması boşqababənzər olub, onda antosian maddəsi yoxdur. Meyvələr bitki üzərində tək-tək, bəzən cüt-cüt yerləşir. Forması uzun konusvari, uzunluğu 11-14 sm, diametri 5,0-6,0 sm-dir. Onların rəngi

texniki yetişkənlik fazasında açıq sarı, bioloji (tam) yetişkənlik fazasında al qırmızı olur. Səthi hamar, bitki üzərində yerləşmə vəziyyəti əsasən sallaq və bəzən dikdurandır. Meyvə divarının (perikarp) qalınlığı 0,4-0,6 sm-dir. Bir meyvənin kütləsi 97-110 qr həddində dəyişir. Meyvəsi ətli, şirəli və zərifdir. Bir meyvədə toxumların sayı 115-136 arasında dəyişir. Toxumun forması yastı yumru, ağımsov, səthi hamar, diametri 0,3-0,4 sm-dir. 1000 ədəd toxumun çəkisi 5,03 qr-dır. Sort tezyetişəndir (95-110 gün). Məhsuldardır. Əsas xəstəliklərə davamlıdır. Texniki yetişkənlik fazasında biokimyəvi tərkibi aşağıdakı kimidir; quru maddə 5,2%, şəkər 2,58%, C vitamini 103 mq-dır.

Bibər (şirin)

"İnci"

"İnci" sortu yığcam formalı orta hündürlüyü 65-72 sm-dir. Yarpaqlanma dərəcəsi orta səviyyəlidir. Gövdənin diametri 1,5-2,0 sm, rəngi yaşıl, künclüdür. Gövdə üzərində 7-10 yarpaqdan sonra budaqlar formalaşır. Yarpaq yaşıl uzunsov-yumurtavari formalı, uzunluğu 10-12 sm, eni 5-6 sm, rəngi yaşıldır, kənarı tamdır. Buğumarası məsafə 4-8 sm-dir. Çiçəkləri iridir (2,5-3,0), ağ rənglidir. Ləçək və erkəkciklərin sayı 6-7-dir. Tozcuq kisələrinin rəngi maviyə çalır. Kasacığın forması boşqababənzər olub, rəngsizdir. Meyvələrin bitki üzərində sayı 16-21 ədəd olaraq onlar tək-tək, bəzən də 2-3 ədəd olmaqla yerləşir. Forması konusvari, uzunluğu 10-14 sm, diametri 5,7-7,2 sm-dir. Onların rəngi texniki yetişkənlik fazasında açıq yaşıl, bioloji (tam) yetişkənlik fazasında isə intensiv qırmızı olur. Səthi az qabırğalı, bitki üzərində yerləşmə forması sallaq vəziyyətində olur. Meyvə kütləsi 100-125 qr həddində dəyişir. Meyvəsi ətli, şirəli və zərifdir. Bir meyvədə toxumların sayı 116-250 arasında dəyişir. Toxumun forması yastı yumru, ağımsov, səthi hamar, diametri 0,3-0,4 sm olub, kütləvi çıxışdan meyvələrin texniki yetişkənliyə qədər 90-115 gün, bioloji yetişkənliyə qədər isə 136-145 gün keçir. 1000 ədəd toxumun çəkisi 5,7 qr-dır. Sort orta tezyetişəndir. Məhsuldardır. Əsas xəstəliklərə davamlıdır. Texniki yetişkənlik fazasında meyvənin biokimyəvi tərkibi aşağıdakı kimidir; quru maddə 5,3%, şəkər 2,25%, C vitamini 103 mq-dır.

Tut ipəkqurdu cinsi

"Ordubad-2"

"Ordubad-2" cinsi monovoltindir, respublikamızın bütün ipəkçilik rayonları üçün yaradılıb, texnoloji və məhsuldar göstəriciləri yüksəkdir. Cinsin baramasının rəngi ağ, çalarsız, forması ovaldır. Baramanın orta çəkisi 2,19 qr-dır. Cinsin barama pərdəsi orta dənəvərli və qütbləri möhkəmdir. Qrenasının dirilməsi 95,7%, qurdların yaşama qabiliyyəti 95,1%, yemləmə müddəti 25,8 gün, yaş baramanın ipəkliliyi 22,9%, barama pərdəsinin açılması 89,8%, ipək çıxımı 44,1%, baramadan açılan ipək telinin uzunluğu 1358 m, metriki nömrəsi isə 3402 m/q-dır.

Tut ipəkqurdu hibrid

" Namazlı-3 x Mizuri-1"

"Namazlı-3xMizuri-1" hibridinin valideyn cinsləri dişi fərd olaraq Namazlı-3, erkək fərd olaraq Mizuri-1 cinsindən istifadə edilmişdir. "Namazlı-3xMizuri-1" hibridi monovoltindir, yüksək məhsuldardır, respublikamızın bütün ipəkçilik rayonları üçün yaradılıb, yaz yemləmələri üçün nəzərdə tutulmuşdur. Hibrid çarpazlaşma (hibridləşmə) metodu ilə yaradılmış, əsas diqqət yüksək məhsuldarlığa və texnoloji göstəricilərin alınmasına yönəldilmişdir. Hibridin baramasının rəngi ağ, çalarsız, forması ovaldır. Hibridin 1 qr qurddan xam ipək məhsulu 905 qr, baramanın orta çəkisi 2,15 qr-dır. Hibridin barama pərdəsi orta dənəvərli və qütbləri möhkəmdir. Qrenasının dirilməsi 96,8%, qurdların yaşama qabiliyyəti 96,3%, yemləmə müddəti 26,3 gün, yaş baramanın ipəkliliyi 22,6%, barama pərdəsinin açılması 88,1%, ipək çıxımı 42,9%, baramadan açılan ipək telinin uzunluğu 1364 m, ipək telinin metriki nömrəsi isə 3318 m/q-dır.

Tut ipəkqurdu cinsi

"Ordubad-1"

“Ordubad-1” cinsi monovoltindir, respublikamızın bütün ipəkçilik rayonları üçün yaradılıb, texnoloji və məhsuldarlıq göstəriciləri yüksəkdir. Cinsin baramasının rəngi ağ, çalarsız, forması ovaldır. Baramanın orta çəkisi 2,21 qr-dır. Cinsin barama pərdəsi orta dənəvərli və qütbləri möhkəmdir. Qrenasının dirilməsi 96%, qurdların yaşama qabiliyyəti 95,9%, yemləmə müddəti 25,8 gün, yaş baramanın ipəkliliyi 23,1%, barama pərdəsinin açılması 87,8%, ipək çıxımı 45,7%, baramadan açılan ipək telinin uzunluğu 1479 m, metriki nömrəsi isə 3512 m/q-dır.

Tut ağacı

"Şəmkir-tut"

"Şəmkir-tut" sortu diploid "Sıxgöz-tut" (M.multicaulis x M.bombucis) sortu ilə diploid "Zərif-tut" (M.alba L.) sortunun növarası hibrididir. 1 qr qurddan ümumi barama məhsulu 4,37 kq, normal baramaların orta kütləsi 1,96 qr, 1 kq diri barama almağa sərf edilmiş yarpağın kütləsi 17,30 kq-dır. Diri baramadan quru barama çıxımı 41,26%, diri baramaların ipəkliliyi 20,26% və quru baramaların ipəkliliyi 47,56%-dir. Barama pərdəsinin açılması 88,04%, quru baramadan xam ipək çıxımı 41,89%, barama telinin orta uzunluğu 1149 m və telin metrik nömrəsi 3362 m/q.

Tut ağacı

"Teymur-tut"

"Teymur-tut" sortu diploid "Toxumlu-tut" (M.alba L.) sortu ilə tetraploid "Azt-58-20" (M.alba L.) formasının növdaxili hibrididir. 1 qr qurddan ümumi barama məhsulu 4,52 kq, normal baramaların orta kütləsi 2,03 qr, 1 kq diri barama almağa sərf edilmiş yarpağın kütləsi 16,76 kq-dır. Diri baramadan quru barama çıxımı 40,93%, diri baramaların ipəkliliyi 20,17% və quru baramaların ipəkliliyi 45,79%-dir. Barama pərdəsinin açılması 87,92%, quru baramadan xam ipək çıxımı 40,31%, barama telinin orta uzunluğu 1115 m və telin metrik nömrəsi 3301 m/q.

Qızılgül

"Abşeron şıltaqlığı"

"Abşeron şıltaqlığı" floribunda bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər

Akademiyasının Mərkəzi Nəbatat Bağında Masquearade "F. " x "Liverpool S. " sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən bir çox xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi girdədir, orta ölçüdə itiucdur. Gülləri əvvəl qızılı-sarı sonra çəhrayı və sonradan tünd-qırmızı rənglərə dönürlər, kasavaridir, ortadır (7-8 sm dm.), yarımçoxləçəklidir (10-18 ləçək), çiçək qrupunda müxtəlif rənglərdə 10-25 sayda və tək-tək olurlar. Yarpaqları tünd-yaşıl, qalındərili, parlaqdır, yarpaqcıqları 3-5 ədəd, enli-ellipsvari, uzunsovdur. Kolları güclü, hündürböyüyəndir (160-200 sm), şaxələnir, tikanları seyrəkdir, cavan budaqları tikansızdır. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasiləsizdir, payızın sonuna qədər davam edir. Meyvə bağlayır. Çiçək qrupunda müxtəlif çalarlı rənglərin olması kola xüsusi dekorativlik verir. Yaşıllaşdırmada tək-tək və qrup şəklində əkilməsi tövsiyə olunur.

Qızılgül

"Aysel"

"Aysel" sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında "Lady Rose HT." x "Michele Meilland HT. " sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə, ləçəklərinin sayına və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi iridir, ovaldır, itiucdur. Gülləri krem rəngində olub yan ləçəklərinin kənarından koral rəngi ilə haşiyələnir, kasavaridir, iridir (13 sm dm.), sıx çoxləçəklidir (80-85 ləçək), az ətirlidir, əsasən tək-təkdir. Yarpaqları tünd-yaşıldır, enli-lanset formasında itiucdur, qalındərilidir, parlaqdır. Kolları 100-120 sm hündürlükdə, düzünə böyüyəndir, budaqlarda tikanları seyrəkdir. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, may ayından başlayaraq dekabrın axırlarına qədər davam edir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsiş gülü kimi əkilib becərilməsi tövsiyə olunur.

Qızılgül

"İpək yolu"

"İpək Yolu" sortu çay-hibrid bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında "Virgo HT. " x "Michele Meilland HT." sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə, formasına və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi iridir, ovaldır, itiucdur. Gülləri krem rəngində olub açıq-çəhrayı çalarlıdır kasavaridir, iridir, iridir (4,5 sm hünd., 10 sm dm.), çoxləçəklidir (45-48 ləçək), tək-təkdir, bəzən az saylı çiçək qrupundadır, ətirlidir. Yarpaqları enli-lanset formasında tünd-yaşıldır, qalındərili, parlaqdır. Kolları 100-120 sm hündürlükdə, düzünə böyüyəndir, budaqlarda tikanları seyrəkdir. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, may ayından başlayaraq dekabrın axırlarına qədər davam edir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, istixanada kəsiş gülü kimi əkilib becərilməsi tövsiyə olunur.

Qızılgül

''Köhnə Bakı''

"Köhnə Bakı" sortu floribunda bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında "Cyclamen F. " x "Gold Symphonie HT. " sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə, formasına və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi girdədir, orta ölçüdədir. Gülləri mərcan-çəhrayı rəngindədir, kasavari-şarşəkillidir (qədim gülləri xatırladır), ortadır (7 sm dm.), çoxləçəklidir (40-42 ləçək), tək-tək və çiçək qrupunda üçə qədər olur, az ətirlidir. Yarpaqları tünd-yaşıldır, az parıltılı, nazik dərilidir, yarpaqcıqları 7 ədəd xərda ölçülü, oval formasındadırlar. Kolları 40-50 sm hündürlükdə alçaq boyludur, şaxələnəndir, budaqları torpağa sərilirlər, tikanlıdır. Xəstəlik və ziyanvericilərə davamlıdır. Quraqlıq və şaxtalı günlərə dayanıqlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, fasiləsizdir. Açılmış gülü dekorativliyini 12-15 gün saxlayır. Yaşıllaşdırmada tək-tək və qrup şəklində, torpaqörtüyü kolu kimi istifadəsi tövsiyə olunur.

Qızılgül

''Ulduzlu Xəzər''

"Ulduzlu Xəzər" sortu floribunda bağ qrupuna daxildir. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında 2009-cu ildə "Masquerade F. " x "Liverpool F. " sortlarının çarpaz tozlandırılmasından alınmışdır. Valideynlərindən gülünün rənginə, formasına, kolunun habitusuna və digər xarakterik biomorfoloji xüsusiyyətlərinə görə fərqlənir. Qönçəsi ovaldır, xırdadır, itiucdur. Gülləri bənovşəyi-çəhrayı rəngində, orta ölçüdədir (7-9 sm dm.), kasavaridir, yarımçoxləçəklidir (14-18 ləçək), çiçək qrupunda 3-12 sayda, bəzən tək-tək olurlar, az ətirlidir. Yarpaqları açıq-yaşıldır, qalındərili, parlaqdır. Kolları orta hündürlükdə (50-60 sm), şaxələnəndir və torpağa səriləndir, budaqlarda tikanları seyrəkdir. Quraqlığa və şaxtalı günlərə dayanıqlıdır. Xəstəlik və ziyanvericilərə davamlıdır. Göz calağı, yaşıl və yarıodunlaşmış çiliklərlə çoxaldılır. Çiçəkləməsi boldur, aramsızdır, mayın birinci ongünlüyündən başlayaraq fasilə vermədən dekabrın axırlarına qədər davam edir. Meyvə bağlayır. Açılmış gülü dekorativliyini 6-8 gün saxlayır. Yaşıllaşdırmada qrup şəklində, landşaft memarlığında, bordür kimi, həmçinin dibçək bitkisi kimi əkilib-becərilməsi tövsiyə olunur.

Üzüm

''Uğur''

"Uğur" sortu Naxçıvan MR-də ən geniş yayılan aborigen sort olan, texniki istiqamətli "Nənəqırna" X "Sarı kişmişi üzüm" sortlarından alınan hibrid formalar içərisindən seçilmişdir. Yeni hibrid forması çiçəklərinin ikicinsli olması ilə fərqlənir. Gilələrinin dəriciyi nazikdir. Valideyn sortlardan 15-20 gün tez yetişir. Universal istiqamətlidir. Tənəkləri güclü inkişafetmə xüsusiyətinə malikdir. Yeni zoğları maili vəziyyətdə ətrafa yayılırlar, bəzi çubuqları isə düz qalxır. Yazda tənəklərdəki tumurcuqların 92,0%-dən çoxu inkişaf edərək yaşıl zoğlar əmələ gətirir. Məhsuldar zoğlar isə ən azı 60,0-65,0% təşkil edir. Yarpaqları dairəvi formalıdır (diam. 17,0-18,5 sm). Saplağı orta damarın uzunluğunda olur. Bəzən qısa saplaqlı yarpaqlara da rast

gəlinir. Oyuğu açıq enli liraşəkilli, iti diblidir. Bəzən qapalı formada olur. İkicinsli çiçək qrupuna malikdir. 5 ədəd normal inkişaf etmiş erkəkcik saplaqları yumurtalığın yanlarında düz yuxarı formadadır. Öz-özünə və çarpaz tozlanır. Salxımları qanadlı konusvari formalıdır. Çox müxtəlif kütləyə malikdir, tənəklərdə xırda və iri olan salxımlara rast gəlinir. Salxımların uzunluğu 16,5-17.5 sm, eni 11,0-12,0 sm-dir. Salxım saplağının uzunluğu 4,5-6,0 sm-dir, üzümün yetişmə dövrü zəif odunlaşır. Salxımlarda gilələri orta sıxlıqda, bəzən nisbətən sıx yerləşir. Məhsulu tam yetişdikdə gilələri kürə formalı, iri ölçülüdür (diam. 22,0-23,5 mm), kölgə yerlərdə qabığı açıq ağımtıl, gün düşən nahiyələri isə bərkiyir. Gilələri lətli-şirəlidir. şirəsi solğun ağımtıl rənglənir. Kənardan baxanda toxumları görünür.

Çəltik

"Bəstə"

"Bəstə" sortu Türkiyədən introduksiya olunmuş "3-LN" nümunəsindən seçmə yolu ilə yaradılmışdır. Sort yüksək məhsuldarlığa və keyfiyyətə malikdir, xəstəliklərə qarşı davamlıdır. Dən məhsuldarlığı 69 s/ha, vegetasiya müddəti 144-145 gündür. Məhsuldar kolların sayı 18-19 ədəd, sünbüldə (süpürgədə) dənlərin sayı 132-133 ədəddir.

Çəltik

"Zəfər 44"

"Zəfər 44" sortu Türkiyədən introduksiya olunmuş "3-LN" nümunəsindən seçmə yolu ilə yaradılmışdır. Sort yüksək məhsuldarlığa və keyfiyyətə malikdir, xəstəliklərə qarşı davamlıdır. Dən məhsuldarlığı 67 s/ha, vegetasiya müddəti 143-144 gündür. Məhsuldar kolların sayı 13-14 ədəd, sünbüldə (süpürgədə) dənlərin sayı 87-88 ədəddir.

Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin Dövlət Reyestrində bitki cinslərinin/növlərinin latın adlarının düzgün yazılışında yol verilmiş hər hansı texniki səhvlərə və reyestrin yaxşılaşdırılmasına dair iradlarını bildirən, təklif vermək və yaxud köməklik göstərmək istəyənlərə öncədən təşəkkürümüzü bildiririk.